*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

28 iyun 2019-cu il № 45-48 (9327) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiymәti 50 qəpik

## BU SAYIMIZDA

### Yolunuz həmişə açıq olsun!




*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev iyunun 24-də dənizçiləri peşə bayramı münasibəti ilə təbrik edib. Təbrikdə deyilir...*

Səh. 2

### İmtahanların gedişindən tələbələr də razı qalıb, valideynləri də



*Azərbaycan Dövlət Dəniz Akademiyasında yaz semestrinin imtahan sessiyasının növbəti imtahanları keçirilib. 2-ci və 3-cü kursların ümumilikdə 438 tələbəsi fənlər üzrə biliklərini sınayıb. İmtahanlar həm test, həm də yazılı üsulla keçirilir.*

Səh. 3

UNUTSAQ, UNUDULARIQ



### Onu hamı tələbkar olduğu qədər də sadə insan kimi xatırlayır

*O, bütün həyatı boyu düzə inanıb və mayası düzlüklə yoğrulmuş şərəfli bir ömür yaşayıb. Söhrab Ağayevi bu gün də hamı belə insan kimi xatırlayır.*

Səh. 4

### "Sətti" qurğusu modernləşdirildikdən sonra Xəzər dənizi akvatoriyasında qazma əməliyyatlarına cəlb olunacaq




*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) yedək gəmilərinin müşaiyəti ilə "KazMunayGaz" şirkətinin "Sətti" özüqalxan üzən qazma qurğusu Qazaxıstanın Ersay limanından SOCAR-ın "Caspian Drilling Company" (CDC) MMC-nin müasir dəniz təchizat və logistika bazasına çatdırılıb.*

Səh. 5

### Dənizçilər qaçqın və məcburi köçkün ailələrini sevindiriblər



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) nümayəndələri tariximizin şanlı səhifələrindən olan Milli Qurtuluş Günü ərəfəsində ASCO-nun himayəsində olan qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı qəsəbələrə baş çəkiblər.*

Səh. 6

### Dənizçi ailələri arasında keçirilən "Atam, anam və mən" adlı idman-turizm yarışında bu dəfə də uduzan olmadı

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) birgə təşkilatçılığı ilə Xaçmazın Nabran istirahət zonasında "Atam, anam və mən" adlı idman-turizm yarışı keçirilib.*

Səh. 8



# Dənizçilər ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

***Prezident İlham Əliyevin 2014-cü il 19 iyun tarixli Sərəncamı ilə hər il iyunun 25-i Azərbaycan Respublikasında "Dənizçi Günü" peşə bayramı elan olunub.***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin və Dövlət Dəniz Agentliyinin kollektivləri peşə bayramı günü Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn ziyarətçilər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının, o cümlədən dənizçilərin xatirəsini ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.





















## SEVƏR CƏSURLARI, QOÇAĞI DƏNİZ

*("Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin dənizçilərinə)*

Bir üzü mülayim, bir üzü sərtdi,
Açmaz hər yetənə qucağın dəniz.
İgidlik, sədaqət - birinci şərti,
Sevər cəsurları, qoçağı dəniz.

Çəkir səfər boyu dəniz sınağa,
Dənizçi hər səfər imtahan verir.
Sınaqdan uğurla keçənlərinsə
Dənizin gözləri üstədi yeri.

Dənizdə dalğalar dağa dönəndə,
Sahildə dağlar da ehtiyat edər.
Çəkilməz gəmilər zərrəcə geri,
Gəmilər "dağlar"ın üstünə gedər.

Heç nə əsirgəməz, verər nəyi var,
Həmişə açıqdı əli dənizin.
Sevgidən savayı kimdən nə istər?
Onunçün uzundu dili dənizin.

Gəmilər səfərə çıxanda baxın,
Sevinci köksünə sığmır dənizin.
Gəmisiz, səfərsiz elə darıxır,
Bəzən səsi belə çıxmır dənizin.

*Rasif İMANOĞLU*

# Yolunuz həmişə açıq olsun!



***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev iyunun 24-də dənizçiləri peşə bayramı münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:***

Hörmətli həmkarlar!

Sizi peşə bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, müstəqil Azərbaycanımızın tərəqqisi naminə çətin və şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Artıq altıncı ildir ki, möhtərəm Prezidentimiz İlham Əliyevin 19 iyun 2014-cü il tarixli Sərəncamı ilə təsis olunan və bütün dəniz nəqliyyatı işçilərinə ərməğanı hesab etdiyimiz 25 iyun - “Dənizçi Günü” peşə bayramını böyük sevinc və dərin minnətdarlıq hissi ilə qeyd edirik.

Xalqımızın təbiət etibarı ilə mərd və dözümlü dənizçilərə xüsusi rəğbət bəsləməsi, dalğalar qoynunu hünər meydanı seçənlərə böyük ehtiramla yanaşması, ölkə rəhbəri tərəfindən dəniz nəqliyyatı işçilərinə daim diqqət və qayğı göstərilməsi, onların fədakar əməyinin yüksək qiymətləndirilməsi bizə hədsiz fərəh bəxş etməklə yanaşı, həm də çətin olduğu qədər də şərəfli bir peşənin təmsilçiləri olduğumuzun iftixarını yaşadır.

Şanlı tarixə malik Gəmiçiliyimiz keçən il 160 illik yubileyini geniş qeyd etdi. Yubiley ilində "Gəmiçilik sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsini də, ölkə başçısının oktyabrın 20-də imzaladığı sərəncamlarla dəniz nəqliyyatında səmərəli əmək fəaliyyətlərinə görə 1 nəfərin ikinci dərəcəli, 3 nəfərin üçüncü dərəcəli “Əmək ordeni”, 12 nəfərin “Tərəqqi” medalı, 27 nəfərin "Gəmiçilik sahəsində xidmətlərə görə" medalı ilə təltif edilməsi, 1 nəfərin “Əməkdar mühəndis” fəxri adına, 1 nəfərin isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülməsini də ASCO-nun bütün kollektivinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndiririk.

Fərəhli haldır ki, çoxminli kollektivimiz bu dəfə də peşə bayramını bütün sahələrdə qazandığı yüksək göstəricilərlə qarşılayır. Son bir ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsi, rəqabət qabiliyyətinin, yükdaşımaların həcminin artırılması, donanmalarımızın ən müasir gəmilər hesabına zənginləşdirilməsi, Xəzərdə aparıcı mövqeyini qoruyub saxlayan ASCO-nun Xəzərdənkənar fəaliyyətini daha da genişləndirməsi, dənizçilərin rifahının, mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımların hər biri həm də peşə bayramına töhfəmiz sayıla bilər.

Dövlətimizin başçısının gəmiçilik sahəsinə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, təkcə son 5 ildə 20 müxtəlif təyinatlı gəmi alınaraq istismara verilib. Donanmalarımızın yenilənməsi planı çərçivəsində yaxın 10 ildə ASCO üçün müxtəlif təyinatlı daha 70-dən çox gəminin alınması və tikintisi planlaşdırılır. Sevindirici hal bir də budur ki, bu prosesdə yerli gəmiqayırmanın imkanlarından da istifadə olunur. Bakı Gəmiqayırma Zavodu indiyədək bizi yeni bir liman-yedək, üç sərnişin gəmisi ilə sevindirib.

Hazırda Gəmiqayırma Zavodunda ASCO üçün dörd RST12C tipli yeni nəsil tanker, iki unikal “Ro-Pax” tipli (CNF- 18C) gəmi-bərə tikilir. Bu ilin fevralında həmin gəmilərdən birinin – “Laçın” tankerinin suya sılınması mərasimi keçirildi.

Gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan hər təzə gəmi isə donanmamızın daha da gücləndirilməsi ilə yanaşı, həm də dənizçilərimiz üçün yeni iş yerləri deməkdir.

2017-ci il sentyabrın 6-da Bakı Gəmiqayırma Zavodunda BP şirkətinin sifarişi ilə “Şahdəniz-2” layihəsi çərçivəsində inşa edilən “Xankəndi” sualtı tikinti gəmisinin təqdimat mərasimində çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dilində səslənən “Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Gəmiçiliyin fəaliyyəti beynəlxalq standartlara cavab verir. Gəmiçilik artıq gəlirlə işləyir, büdcəmizə böyük vergi ödəyir” sözləri isə bizə hədsiz sevinc bəxş etməklə yanaşı, həm də cavabdeh olduğumuz işlər üçün məsuliyyət hissimizi qat-qat artırır.

Əminəm ki, gündən-günə çiçəklənən müstəqil Azərbaycanı qətiyyətlə daha xoşbəxt gələcəyə aparan dövlət başçımızın hər sahədə mütərəqqi siyasətini dəstəklədiyinizi bundan sonra da əməli işinizlə sübut edəcək, müqəddəs üçrəngli bayrağımızı yaxın-uzaq ölkələrin sularında böyük iftixarla dalğalandıracaq, yük daşınmasında, Xəzərdə neft və qaz istehsalında yüksək dəniz nəqliyyatı xidmətləri göstərilməsində çiyninizə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Sizə aydın səma, uğurlu səfərlər arzulayıram.

Bayramınız mübarək olsun!

***Rauf Vəliyev,***
***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri***

# Yeni sosial paket Prezident İlham Əliyevin "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" tezisini bir daha təsdiq etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin rifahının yüksəldilməsi məqsədilə növbəti sosial paketi təsdiq etdi. Bu, həyata keçirilən dövlət siyasətinin davamı, silsilə tədbirlərin növbəti mərhələsidir.***

Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının böyük dərəcədə artırılması barədə iyunun 18-də imzaladığı sərəncamlar dövlətimizin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə göstərir.

Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə Prezident tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılıb. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu ilin sentyabr-dekabr ayları üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

İyunun 18-də imzalanan 17 sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir.

Dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu sərəncamlar ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

İmzalanmış sərəncamlar:

- minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılmasını;
- dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz artırılmasını;
- hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz artırılmasını;
- dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz artırılmasını;

dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılmasını nəzərdə tutur.

Cari ilin əvvəlindən etibarən qəbul edilmiş bu kimi qərarlar qlobal iqtisadiyyatda baş verən mənfi meyillərin ölkə əhalisinin sosial təminatına təsirini minimallaşdırmağa imkan vermişdisə, hazırkı sərəncamlar isə əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradacaq.

Əməkhaqlarının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi fəallığın daha da yüksəlməsinə öz töhfəsini verəcək.

İqtisadi sahədə əldə edilmiş böyük uğurların sosial sferaya transformasiyası dövlətimizin başçısının bəyan etdiyi sosial-iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən ölkə vətəndaşlarının sosial təminatını əhəmiyyətli dərəcədə artırıb. Büdcə gəlirlərinin daha artıq məbləğdə təmin edilməsi sosial sahədə islahatların dərinləşməsi üçün münbit şərait yaradıb.

Dövlət büdcəsində formalaşan əlavə gəlirlərin bilavasitə vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəldilməsi ölkənin kompleks iqtisadi inkişafı fonunda dövlət–vətəndaş etimad mühitini dərinləşdirməklə, aparılan sosial siyasətin alternativsiz olduğunu bir daha sübut edir.

Göründüyü kimi, dövlətimizin başçısının yeni sosial paketi əhalinin rifahına ciddi dəstək tədbirlərinin uğurla davam etməsinə, nəticə etibarilə, əhalinin rifah halının yüksəldilməsi sahəsində ardıcıl irəliləyişlərin reallaşdırılmasına imkan verir. Bir sözlə, Prezident İlham Əliyev "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" tezisini bir daha təsdiq etdi.

Xatırladaq ki, 2019-cu ilin əvvəlində Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu və bu məqsədlər üçün 1,5 milyard manat vəsait ayrıldı.

# Dövlət qayğısı, xalq sevgisi ilə qüdrətlənən Azərbaycan Ordusu!

## Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 101 ili tamam oldu

***1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə – əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş “İstiqlal bəyannaməsi”ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi.***









Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey mərkəzinin yerləşdiyi ərazidə keçirilib. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad edə bilmişdi. 1920-ci ildə Azərbaycan sovet işğalına məruz qaldıqdan sonra hərbi nazirlik ləğv olundu, ordumuzun 15 generalı bolşeviklər tərəfindən güllələndi.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli qərarına əsasən, 26 iyun Silahlı Qüvvələr Günü elan olundu. 2011-ci il iyunun 26-da Bakıda Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevin iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə müasir Azərbaycan Ordusunun hərbi paradı keçirildi.Daha sonra hərbi parad 2013-cü ildə Silahlı Qüvvələr Gününün yaranmasının 95 illiyinə həsr edildi. Növbəti parad isə 2018-ci ildə Ordumuzun 100 illiyinə həsr olundu.

Son illər ərzində Azərbaycan hərbi potensialını xeyli artırıb. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilib. Hazırda maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur.

Azərbaycan Ordusu bu gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi. 1994-cü il mayın 12-də cəbhədə rəsmən atəşkəs elan olunmasına baxmayaraq, ermənilər hələ də atəşkəs rejimini pozmaqda davam edirlər. Lakin Azərbaycan Ordusunun qəhrəman əsgərləri ön xətdə düşmənə layiqli cavab verir, işğalçı ordunun təxribatlarının qarşısını qətiyyətlə alırlar. 2016-cı ilin aprelində Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenidən düşmənə öz gücünü göstərdi. 2016-cı il aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Düşmənin 320-dən artıq hərbçisi məhv edildi, 500-dən artıq hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqelər ələ keçirildi.

Ali Baş Komandanın daimi nəzarəti, diqqət və qayğısı, eyni zamanda, Müdafiə Nazirliyi rəhbərliyinin düzgün qurduğu fəaliyyət nəticəsində Ordumuzun üzüağ çıxdığı bu əməliyyatın ən böyük nəticələrindən biri odur ki, Azərbaycan Ordusu mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq baxımdan Ermənistan ordusunu nə qədər qabaqladığını ortaya qoydu və düşmən də bu üstünlüyü tam anladı. Erməni ictimaiyyəti bu prosesdə gerilədiyini, uduzduğunu öz üzərində açıq-aydın hiss etdi. Atəşkəs elan edildikdən keçən dövr ərzində ermənilər ilk dəfə törətdikləri təxribata görə cavablarını aldılar və bu düşmən üçün gözlənilməz olduğu qədər də layiqli cavab oldu.

Azərbaycan Ordusunun daha bir uğurundan danışmaq yerinə düşər. Ötən il Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Ordusunun keçirdiyi əməliyyatı da Silahlı Qüvvələrimizin uğurları sırasındadır.

Bir sözlə ölkəmizdə ordu quruculuğu uğurla davam edir.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradılıb. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur.

Azərbaycan Ordusu beynəlxalq terrorizmə qarşı mübarizədə fəallıq göstərir. Ölkənin Sülhməramlı Qüvvələri Əfqanıstandakı koalisiya əməliyyatlarında iştirak edir. Bir sözlə, 101 illik tarixi olan Azərbaycan Ordusu tezliklə işğal altındakı torpaqlarımızı azad edəcək. Ordumuz buna qadirdir.

İnanırıq ki, qələbə əzmi ilə xidmət edən ordumuzun şəxsi heyəti xalqımızı daha çox qələbələrlə sevindirəcək. Bu isə Azərbaycan Ordusunun dövlət qayğısına, xalq sevgisinə ən düzgün cavabı olmalıdır.

# 2018-ci ilin "Ən yaxşıları"

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də ( ASCO) 2018-ci ilin "Ən yaxşı gəmi", "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik", "Ən yaxşı elektrik mexaniki", "Ən yaxşı bosman", "Ən yaxşı matros", "Ən yaxşı motorçu", "Ən yaxşı gəmi təmirçisi", "Ən yaxşı müəllim" və" İlin gənc dənizçisi" nominasiyaları üzrə qaliblər müəyyən olunub.***

***"Ən yaxşılar" "AXDG" QSC-nin sədri Rauf Vəliyevin imzaladığı əmrlə müsabiqənin keçirilmə qaydaları və Təşkilat komitəsinin müvafiq protokolu nəzərə alınaraq müəyyən edilib.***

***Qalibləri təqdim edirik.***

**"Ən yaxşı gəmi"**

Xəzər Dəniz Neft Donanmasının (XDND) "General Əsədov" gəmisi;

Dəniz Nəqliyyat Donanmasının (DND) "Akademik Zərifə Əliyeva" gəmisi

**"Ən yaxşı gəmi" nominasiyası üzrə 2-ci yer**

XDND-nin "Atlet-24"gəmisi;

DND-nin "Nəsimi" gəmisi

**"Ən yaxşı kapitan"**

XDND-nin "Mərdəkan" gəmisinin kapitanı Paşayev İlqar Ənvər oğlu;

DND-nin "Ağdam" gəmisinin kapitanı Əhmədov Etibar İsmayıl oğlu

**"Ən yaxşı kapitan" nominasiyası üzrə 2-ci yer**

XDND-nin "Mühəndis Balarza Məmmədov" gəmisinin kapitanı Vəlixanov Söhbət Əbeydulla oğlu;

DND-nin "Qarabağ" gəmisinin kapitanı Həsənov Emin Vaqif oğlu

**"Ən yaxşı mexanik"**

XDND-nin "Nefteqaz-64" gəmisinin mexaniki Əliyev Yaşar Davud oğlu;

DND-nin "Üzeyir Hacıbəyli" gəmisinin mexaniki Şabanov Hikmət İsfəndiyar oğlu

**"Ən yaxşı mexanik" nominasiyası üzrə 2-ci yer**

XDND-nin "Qaradağ-7" gəmisinin mexaniki Levşa Vyaçeslav İvanoviç;

DND-nin "Rəsul Rza" gəmisinin mexaniki Ağaliyev Zaur Elman oğlu

**"Ən yaxşı elektrik mexaniki"**

XDND-nin "Şirvan-3" gəmisinin elektrik mexaniki Quliyev Emin Hasil oğlu;

DND-nin "Fikrət Əmirov" gəmisinin elektrik mexaniki Əliyev Elşad Pircan oğlu

**"Ən yaxşı elektrik mexaniki" nominasiyası üzrə 2-ci yer**

XDND-nin "Atlet-8" gəmisinin elektrik mexaniki Abdullayev Sərdar Cavanşir oğlu;

DND-nin "General Aslanov" gəmisinin elektrik mexaniki Məmmədov Xəqani Bəhman oğlu

**"Ən yaxşı bosman"**

XDND-nin "Atlet-24" gəmisinin bosmanı Cəbiyev Rüfət Baba oğlu;

DND-nin "Akademik Topçubaşov" gəmisinin bosmanı Əliyev Bəhman Mikayıl oğlu

**"Ən yaxşı bosman" nominasiyası üzrə 2-ci yer**

XDND-nin "Yarenqa" gəmisinin bosmanı Səfixanov Mayil Şıxsəfi oğlu;

DND-nin "Qaradağ" gəmisinin bosmanı Şahbazov Mehman Abdulla oğlu

**Ən yaxşı matros**

XDND-nin "Atlet-2" gəmisinin matrosu Şammədov Həsrət Qonsur oğlu;

DND-nin "Şahdağ" gəmisinin matrosu Abdulxalıqov Aqşin Cəlil oğlu

**"Ən yaxşı matros" nominasiyası üzrə 2-ci yer:**

XDND-nin "General Əliağa Şıxlinski" gəmisinin matrosu Dadaşov Faiq Rövşən oğlu;

DND-nin "Natəvan" gəmisinin matrosu Məmmədov Müqtədir Şakir oğlu

**"Ən yaxşı motorçu"**

XDND-nin "Vadim Seyidov" gəmisinin motorçusu Ağabəyov Tolik Səvləddin oğlu;

DND-nin "Şair Sabir" gəmisinin motorçusu Allahverdiyev Rövşən Allahverdi oğlu

**"Ən yaxşı motorçu" nominasiyası üzrə 2-ci yer**

XDND-nin "General Əliağa Şıxlinski" gəmisinin motorçusu Allahverdizadə Babək Qabil oğlu;

DND-nin "Şair Sabir" gəmisinin motorçusu Sultanov Şahin Əhmədağa oğlu

**"Ən yaxşı gəmi təmirçisi"**

"Zığ" GTTZ-nin gəmi təmiri çilingəri Yolçuyev Namik Əli oğlu;

Bibiheybət" GTZ-nin gəmi gövdə təmirçisi Nadirov Zabil Sabir oğlu

**"Ən yaxşı gəmi təmirçisi" nominasiyası üzrə 2-ci yer**

"Zığ" GTTZ-nin gəmi gövdə təmirçisi Əliyev Novruz Hidayət oğlu;

"Bibiheybət" GTZ-nin gəmi təmiri çilingəri Rəşidov Fərhad Nizami oğlu

**"Ən yaxşı müəllim"**

ADDA-nın Gəmiqayırma və gəmi təmiri kafedrasının baş müəllimi Xankişiyev İsaq Abuzər oğlu

**"Ən yaxşı müəllim" nominasiyası üzrə 2-ci yer**

ADDA-nın Gəmi energetik qurğuları kafedrasının baş müəllimi Alməmmədov Nizami Məmmədəli oğlu

**"İlin gənc dənizçisi"**

DND-nin "Professor Gül" gəmisinin kapitanı İsmayılov Təhmiraz Vilayət oğlu

# İmtahanların gedişindən tələbələr də razı qalıb, valideynləri də






***Azərbaycan Dövlət Dəniz Akademiyasında yaz semestrinin imtahan sessiyasının növbəti imtahanları keçirilib. 2-ci və 3-cü kursların ümumilikdə 438 tələbəsi fənlər üzrə biliklərini sınayıb. İmtahanlar həm test, həm də yazılı üsulla keçirilir.***

Hər il olduğu kimi, bu il də ADDA rəhbərliyinin təşəbbüsü ilə imtahan prosesini izləmək üçün tələbələrin valideynləri dəvət olunub. Tədris və tərbiyə işləri üzrə prorektor Zahid Şərifov qonaqlara imtahanlar haqqında geniş məlumat verib. Bildirib ki, həm imtahanın gedişi, həm də bilet suallarının yoxlanılması zamanı şəffaflığın qorunması diqqətdə saxlanan ən başlıca məsələdir. Sualların kafedra müəllimləri tərəfindən təqdim edilməsinə baxmayaraq, biletlərdə onların hansı ardıcıllıqda olması kompüter vasitəsi ilə təyin edilir. Cavabların yazıldığı vərəqlərdə tələbənin ad-soyadı şifrələnir. Beləliklə, müəllimin hansı tələbənin cavabını yoxlamasından xəbəri olmur. Bu da, öz növbəsində, hər hansı neqativ halın qarşısını ala bilir.

Valideynlərə həmçinin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi tərəfindən Akademiya üçün yenicə alınmış CADMATİC otağı barəsində məlumat verilib. Qeyd olunub ki, CADMATİC "Gəmiqayırma, okean texnikası və dəniz infrastrukturu obyektlərinin sistem texnikası" istiqamətində yeni hazırlıq standartında istifadə olunan proqram təminatıdır. CADMATİC tələbələrə müəyyən bir tapşırığın modelləşdirilməsinə və təcrübədən keçirilməsinə imkan yaradır. ADDA-nın tədris-təlim bazasına daxil olan digər avadanlıqlar haqqında da valideynlərə məlumat verilib.

Valideynlər imtahan prosesi ilə yaxından tanış olmağa şərait yaratdığına görə Akademiyanın rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. ADDA-da tədris prosesinin və nizam-intizamın övladlarının karyerasına müsbət təsir göstərəcəyinə əmin olduqlarını qeyd ediblər.

# Rafael Hüseynov: "Avropa Şurasındakı böhranların əsas səbəblərindən biri intizamsız və işğalçı Ermənistanın cəzasız qalmasıdır"



***İyunun 24-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasının ilk iş günündə belçikalı deputat Petra Sutterin "Səlahiyyətlər və səsvermə ilə bağlı Parlament Assambleyasının qərar qəbuletmə prosesinin möhkəmləndirilməsinə" dair hazırladığı məruzə ciddi müzakirələrə səbəb olub.***

AZƏRTAC xəbər verir ki, mövzu ilə bağlı müzakirələrdə 70-ə yaxın deputat çıxışa yazılıb.

Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov müzakirələrə qatılaraq, AŞPA nizamnaməsi və qaydalarında dəyişiklik etmək cəhdlərinin müsbət və mənfi tərəflərinə toxunub.

Bildirib ki, 70 yaşını qeyd edən bir təşkilatın nizamnaməsində, fəaliyyət prinsiplərində dəyişikliklər etməyə çalışması, bir tərəfdən çox yaxşıdır, digər tərəfdən isə narahatedicidir. Deputat deyib: "Yaxşıdır ona görə ki, bu, təşkilatdakı daxili dinamikadan xəbər verir. Göstərir ki, təşkilat öz işinə tənqidi yanaşmağı bacarır, yeniləşməyə, daha mükəmməl olmağa can atır. Narahatedici tərəfi isə 50-yə yaxın ölkənin ictimai-siyasi taleyi ilə bilavasitə bağlı olan bir mötəbər təşkilatın indiyədək kamil və rəvan işləyən nizamnaməsinin, qaydalarının olmamasıdır. Belə görünür ki, indiyədək müəyyən məsələlərdə yanlış yolla irəliləyirmişik".

Yeniləşmənin, təkmilləşmənin vacibliyinə toxunan R.Hüseynov bildirib ki, yeniləşməyə meyil, müsbət dəyişikliklər etmək cəhdi məqbul gedişatdır. Lakin Avropada və dünyada müşahidə etdiyimiz oxşar islahatların öyrətdiyi təcrübə də var. Belə dəyişikliklər müəyyən qrupları, şəxsləri, dövlətləri nəzərdə tutaraq, onların hüquq və səlahiyyətlərinin məhdudlaşdırılmasını və ya genişləndirilməsini hədəf götürməməlidir. Dəyişikliklərdən hamı faydalana bilməlidir, bu yeniliklər hamı üçün daha yaxşı fəaliyyət imkanları təmin etməlidir.

R.Hüseynov üzv ölkələrin hər birinin bu quruma qəbul edilərkən müəyyən öhdəliklər götürdüyünü, prosedurlardan keçdiyini diqqətə çatdıraraq deyib ki, AŞPA-ya daxil olan ayrı-ayrı dövlətlərin fərdi öhdəliklərindən başqa, ortaq və mühüm öhdəlik üzvlüyün başlıca şərti kimi təşkilatın nizamnaməsinə, qaydalarına, tələblərə tabe olmaqdır, onları danışıqsız icra etməkdir. Üzv ölkə bu tələbləri yerinə yetirmirsə, hətta nümayişkaranə şəkildə bundan imtina edirsə, həm də bunu dəfələrlə edirsə, təbii ki, sanksiyalar işə düşməli, təşkilat ən azı öz nüfuzunu, ləyaqətini qorumaq naminə qəti sözünü deməlidir. Əks təqdirdə, təşkilata inam, etibar itəcək, nüfuzu aşağı düşəcəkdir.

Azərbaycanlı deputat təcavüzkar Ermənistanın AŞPA nizamnaməsi və qaydalarına zidd fəaliyyətlərindən müfəssəl danışıb. Bildirib ki, Ermənistan ötən illərdə sistemli şəkildə Parlament Assambleyasının müəyyən məruzələrinin hazırlanmasına açıq şəkildə müqavimət göstərib, maneçiliklər törədib, qəbul edilmiş qətnamələrə qətiyyən məhəl qoymayıb, illər boyu onları yerinə yetirməkdən imtina edib. Nizamnaməsinə üzv dövlətin belə açıq hörmətsizlik göstərməsinə Avropa Şurası dözüb, dözməkdə davam edir. Bütün bunlardan sonra təşkilatda böhranların ardı-arasının kəsilməməsi, arzuolunmaz proseslərin ardıcıl başlaması təəccüb doğurmur.

"Hamının tələblərinə tam cavab verən nizamnamə olmalı, onu hər yeni situasiyaya uyğun dəyişdirmək cəhdləri edilməməli, prosedur qaydalarının tələblərinə riayət də istisnasız hamı üçün eyni olmalıdır", - deyə R.Hüseynov qeyd edib. Avropa Şurasındakı bir çox böhranların və problemlərin məhz Ermənistan kimi dövlətlərə ifrat güzəştli münasibətdən irəli gəldiyini vurğulayıb.

***Şəhla Ağalarova***

# "Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri"

***"Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri" məcmuəsinin 2-ci nömrəsi çapdan çıxıb.***

Bu, həm də jurnalın 30-cu - yubiley nömrəsidir. Dəniz nəqliyyatı sahəsində ən son elmi nailiyyətlərlə maraqlananlar məcmuə ilə aşağıdakı linkdən tanış ola bilərlər:

Proceedings of ASMA-2019 n2




"Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri" məcmuəsində yerli və xarici ölkə alimlərinin elmi məqalələri 3 dildə - Azərbaycan, rus və ingilis dillərində dərc olunub. Dörd bölmədən – Gəmiqayırma və gəmi təmiri texnologiyası, Gəmiçilik və su nəqliyyatının istismarı, Gəmiçilik texnikası və Gəmiçilikdə təbiət elmləri problemləri bölmələrindən ibarət məcmuədə dərc olunan 26 elmi məqalədən 12-si Ukrayna və Rusiya alimlərinindir.

# Miqrantlar mərhələ ilə qayıqdan endirilib

***Lampeduza adasında təxminən 100 miqrant 3 mərhələ ilə qayıqdan endirilib.***

İtaliyanın "Lagazzettadelmezzogiorno.it" saytı xəbər verir ki, ilk mərhələdə miqrantları tərk edərək Şimali Afrika sahilinə qayıtmağa çalışan balıqçı qayığının adaya gətirdiyi 81 nəfər saxlanılıb.




*Solo giovedì un'altra imbarcazione con 45 persone a bordo era arrivata nell'isola approdo della maggior parte delle carrette del mare che partono dalla Libia*

Maliyyə Qvardiyasının vergi polisinə məxsus olan motorlu qayıq "Ana gəmi" nin yolunu kəsərək saxlayıb. Yerli mənbələrin sözlərinə görə, bundan dərhal sonra daha iki "kiçik eniş" həyata keçirilib.

Birinci eniş zamanı qayıqdan 12, ikinci eniş zamanı isə 7 miqrant düşürdülüb. Onların da saxlanılan balıqçı qayığı ilə gəlib-gəlmədikləri hələlik məlum deyil.

***Asiman Əsədov***

# "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə"

***İyunun 19-da Avstriyanın paytaxtı Vyana şəhərinin "Hofburq" sarayında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransın yekununda Vyana Bəyannaməsi qəbul edilib. Bəyannamədə deyilir:***

İyunun 19-da müxtəlif ölkələrin və beynəlxalq təşkilatların rəsmilərinin, dini liderlərin, ictimaiyyətin nümayəndələrinin, elm və din xadimlərinin iştirakı ilə Avstriyanın paytaxtı Vyana şəhərində keçirilmiş "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" beynəlxalq konfransının iştirakçıları:

sivilizasiyalararası və dinlərarası əməkdaşlığın, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verən Azərbaycan Respublikası tərəfindən Vyana Konfransına göstərilən diqqət və dəstəyi yüksək qiymətləndirərək;

konfransın həmtəşkilatçıları - Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinə, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinə, Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinə və Azərbaycan Respublikasının Avstriya Respublikasındakı səfirliyinə tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirərək;

Zati-müqəddəsləri Roma Papası Fransisk ilə Şeyx Əhməd əl-Tayyib həzrətləri tərəfindən 2019-cu il fevralın 4-də Əbu-Dabidə imzalanmış "İnsani qardaşlıq və dünyada sülh" birgə sənədini alqışlayaraq;

2018-ci il iyunun 25-də BMT-nin Cenevrədəki ofisində "Dinlər, inanclar və dəyər sistemləri: bərabər vətəndaşlıq hüquqları" mövzusunda keçirilmiş ümumdünya konfransında qəbul olunmuş və BMT Baş katibi tərəfindən təsdiq edilmiş Bəyannaməni alqışlayaraq;

qarşılıqlı etimad və anlaşma mühitində mədəni müxtəlifliyin, sivilizasiyalararası və dinlərarası əməkdaşlığın təşviq edilməsinin sülhə, təhlükəsizliyə və bəşəri həmrəyliyə töhfə olduğunu vurğulayaraq və bu istiqamətdə səylərin artırılmasının vacibliyini qeyd edərək;

dünyada terrorizmin geniş miqyasda yayılması, ayrı-seçkiliyin, ksenofobiyanın, rasizmin, eləcə də dini və etnik zəmində dözümsüzlüyün artması, terrorçu və ekstremist qruplaşmalar tərəfindən dinin istismar olunması, mədəni, dini və tarixi irsin dağıdılması, qaçqınların, məcburi köçkünlərin və miqrantların humanitar fəlakət həddinə çatmış kütləvi axını nəticəsində dünyada sülhün, qlobal dialoqun və bəşəri həmrəyliyin bərqərar olmaması ilə bağlı öz dərin narahatlıqlarını ifadə edərək;

özündə bəşəri dəyərləri əks etdirən dinlərin dünya sivilizasiyasına, mədəniyyətinə və mənəvi irsinə əvəzolunmaz töhfə verdiklərini, humanizmin, sülhün və ədalətin bərqərar olmasına xidmət etdiklərini xüsusi vurğulayaraq;

davamlı tərəqqiyə, sabitlik və təhlükəsizliyə əsas maneə olan silahlı münaqişələrə, aqressiv təbliğatlara, dinlərarası və məzhəblərarası ixtilafların qızışdırılması hallarına qarşı beynəlxalq birlik tərəfindən səylərin gücləndirilməsinin zərurətini bildirərək;

dövlətləri, Birləşmiş Millətlər Təşkilatını, digər beynəlxalq, regional və ictimai təşkilatları, dini və dünyəvi liderləri

-sivilizasiyalararası və dinlərarası qarşılıqlı anlaşmanın və əməkdaşlığın davam etdirilməsinə və təşviq olunmasına;

-terrorizmin və insaniyyətə qarşı cinayətlərin din adı ilə bağlanması, ayrı-seçkiliyə əsaslanan rasizmin, habelə təhqiramiz olan ksenofobiyanın, antisemitizmin, xristianofobiyanın və islamofobiyanın qarşısının alınması üçün təsirli tədbirlər görməyə;

-din adından törədilən hər hansı terror aktını bütün dinlərə qarşı törədilmiş terror aktı kimi qiymətləndirməyə;

-terrorçuların öz məkrli niyyətləri naminə dinlərin müqəddəs dəyərlərindən istifadə etməsi cəhdlərinin qarşısının alınmasına;

-irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və təbliğatların qarşısının alınmasında əməkdaşlığın artırılmasına, gənclərin bu sahədə, habelə bərabər vətəndaşlıq mövzusunda maarifləndirilməsini təşviq etməyə;

-Birləşmiş Millətlər Təşkilatının mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı yönəlmiş təhdid və təhlükələrin çözülməsi üçün birgə səylərin artırılması və qlobal dialoqun vacibliyini vurğulayaraq,

-silahlı münaqişə, təqib, zorakılıq, o cümlədən terrorizm kimi amilləri böyük qaçqın axınlarına səbəb kimi tanıyaraq, bu cür böhran vəziyyətlərin köklü səbəblərinin qarşısının alınmasına və sülh yolu ilə həllinə,

-Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət etməyə, dünyanın bir çox bölgələrində, o cümlədən Yaxın Şərqdə davam edən münaqişələrin, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yuxarıda göstərilən prinsiplərə tam uyğun olaraq sülh yolu ilə həll olunmasına töhfə verməyə;

-UNESKO-nun Konstitusiyasına istinadən, dini, mədəni və etnik müxtəlifliyin qəbul olunması və buna hörmətlə yanaşılmasının təşviq edilməsinə;

-Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına riayət etməyə, insan hüquqları, qadın və uşaq haqlarının qorunması sahəsində din, elm xadimləri və ictimaiyyət xadimlərinin birgə fəaliyyətini dəstəkləməyə çağırırlar.

UNUTSAQ, UNUDULARIQ

# Onu hamı tələbkar olduğu qədər də sadə insan kimi xatırlayır

***O, bütün həyatı boyu düzə inanıb və mayası düzlüklə yoğrulmuş şərəfli bir ömür yaşayıb. Söhrab Ağayevi bu gün də hamı belə insan kimi xatırlayır.***



Söhrab Rüstəm oğlu Ağayev 1930-cu il fevralın 22-də Gəncədə hərbçi ailəsində anadan olub. 1946-cı ildə ailəsi Bakıya köçüb.

1948-ci ildə 31 №-li orta məktəbin səkkizinci sinfini başa vuran gənc Bakı Dəniz Yolları Məktəbinin hərbi-dəniz şöbəsinə daxil olub. 1952-ci ildə bu tədris ocağını leytenant rütbəsində "Gəmi sürücüsü" ixtisası üzrə bitirərək, Qırmızı bayraqlı Xəzər Donanmasının Hidroqrafiya xidmətinə məxsus gəmilərdə kapitanın 3-cü köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. 1955-ci ildən etibarən Xəzər Dəniz Gəmiçiliyində işləyib, neftdaşıyan gəmilərdə kapitanın 3-cü, 2-ci və baş köməkçisi üzüb. İntizamı, bacarığı ilə seçilən S.Ağayev səfər xəritəsinə bir çox xarici ölkələrin limanlarının adını yazıb. 1967-ci ilin fevralında Bakı – Krasnovodsk (indiki Türkmənbaşı) xəttində işləyən "Sovet Azərbaycanı" gəmi-bərəsinə kapitanın baş köməkçisi göndərilib. 12 mart 1968-ci ildə həmin xətdə istismara verilən yeni – "Sovet Özbəkistanı" gəmi-bərəsinə kapitan təyin edilib. Sözügedən gəmi-bərənin heyəti kapitan S.Ağayevin rəhbərliyi ilə sərnişin və yük daşımaları üzrə planları həmişə vaxtında yerinə yetirib, dəfələrlə gəmi heyətləri arasında keçirilən yarışlarda qalib olub. Hətta "Sovet Özbəkistanı"-nın kapitanı və onun komandası haqqında keçmiş Sovet İttifaqı məkanında kütləvi informasiya vasitələri arasında sayılıb-seçilən "Oqonyok" jurnalı da məqalə yazıb.

Özünə qarşı tələbkarlığı ilə seçilən kapitan 1975-ci ildə istehsalatdan ayrılmadan Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun Bakı filialını bitirib. 1983 və 1984-cü illərdə Xəzər Dəniz Gəmiçiliyinin "Ən yaxşı kapitan"ı adına layiq görülüb. Mahir gəmi sürücüsü 1994-cü ildən təqaüdə çıxdığı 2012-ci ilədək hami kapitan kimi fəaliyyətini davam etdirib, onlarla gənc kapitanın peşəkar kimi yetişməsinə bilavasitə köməklik göstərib.

Kapitan Söhrab Ağayev "Rəşadətli əməyə görə"(1970) və "Əmək rəşadətinə görə" (1971) medalları ilə təltif edilib. "Dəniz Donanmasının Fəxri işçisi" və "Xəzərin veteranı" olub.

Mahir kapitan Söhrab Ağayev 2016-cı ildə haqq dünyasına qovuşub.

***Sevda ABDULLAYEVA***

# "Sarbaz" sərhəd gözətçi gəmisi Azərbaycana dostluq səfəri edib



***Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (DSX) ilə Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsinin Sərhəd Xidməti arasında 2019-cu il üçün təsdiq edilmiş Tədbirlər Planına müvafiq olaraq, əməkdaşlıq əlaqələri uğurla davam etdirilir.***

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, birgə əməkdaşlıq çərçivəsində iyunun 19-21-də Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsi Sərhəd Xidmətinin Regional Sahil Mühafizəsinin idarə rəisi, polkovnik Alibek Kayupovun rəhbərlik etdiyi nümayəndə heyəti "Sarbaz" sərhəd gözətçi gəmisi ilə Azərbaycana dostluq səfəri edib.

Səfər zamanı tərəflər arasında ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb, Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, birgə əməliyyat-profilaktik tədbirlərinin keçirilməsi, bioloji resursların qorunması, qanunsuz fəaliyyətlərə qarşı mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Həmçinin səfər müddətində "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan və Qazaxıstan Sahil mühafizələrinin əməkdaşları arasında futbol üzrə yoldaşlıq görüşü keçirilib, qarşılıqlı olaraq tərəflərin sərhəd gözətçi gəmiləri ziyarət edilib.

Qonaqlar Bakının mədəni-tarixi abidələri, "İçərişəhər", "Qız qalası", "Atəşgah" və "Qala" muzeyləri ilə tanış olublar.



# Azərbaycan Asiya ilə Avropa arasındakı nəqliyyat dəhlizi üzərində ən mühüm ölkədir

***İyunun 21-də Dövlət Gömrük Komitəsində (DGK) "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çin Xalq Respublikasının (ÇXR) İnkişaf və İslahatlar üzrə Dövlət Komitəsinin infrastruktur inkişafı Departamentinin nümayəndə heyəti ilə görüş keçirilib.***



Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, görüşdə DGK sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov ölkələrimiz arasında əməkdaşlıq münasibətlərindən, beynəlxalq ticarətin inkişafında "İpək Yolu" layihəsinin əhəmiyyətindən, Prezident İlham Əliyevin Çinə səfəri zamanı aparılan müzakirələrin bu sahədəki rolundan danışıb.

Avropa ilə Asiya arasında tranzitin inkişafında, malların və nəqliyyat vasitələrinin qısa vaxt ərzində, az məsrəflə daşınmasında Azərbaycan üzərindən keçən nəqliyyat dəhlizlərinin xüsusi rola malik olduğunu bildirən C.Qasımov ölkəmizin gömrük orqanlarının bu istiqamətdə atdığı addımlardan bəhs edib. Komitə sədrinin müavini gömrük sistemində aparılan islahatlar, tətbiq edilən yeniliklər barədə də qonaqlara ətraflı məlumat verib, iki ölkənin gömrük orqanları arasında məlumat və təcrübə mübadiləsinin gücləndirilməsinin tranzitin inkişafına müsbət təsir göstərəcəyini diqqətə çatdırıb.

Daha sonra Çinin İnkişaf və İslahatlar üzrə Dövlət Komitəsinin infrastruktur inkişafı Departamentinin direktor müavini Ma Tsyan iki ölkə arasındakı mövcud dostluq münasibətlərindən, "Bir kəmər, bir yol" təşəbbüsünün əhəmiyyətindən, Prezident İlham Əliyevin bu ilin apreldə Çinə səfərindən məmnunluqla bəhs edib.

M.Tsyan ölkəmizə səfərinin əsas məqsədinin Asiya ilə Avropa arasındakı nəqliyyat dəhlizinin mövcud vəziyyətini, potensialını və bu dəhlizin inkişafı üçün hansı tədbirlərin həyata keçirilməsinin vacibliyini öyrənmək olduğunu bildirib. Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı ilə bağlı təəssüratlarını bölüşən qonaq Azərbaycanın Asiya ilə Avropa arasındakı nəqliyyat dəhlizi üzərində ən mühüm ölkə olduğunu vurğulayıb, ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün səylərini gücləndirəcəklərini qeyd edib.

Görüşdə, eyni zamanda, gələcək əməkdaşlıq, işçi qruplar arasındakı əlaqələrin daha da gücləndirilməsi və digər məsələlər də müzakirə olunub.

# Erməni separatçılarının planları puça çıxdı

***Son günlər Fransa məhkəmələrinin bu ölkənin bəzi komuna və şəhərləri ilə Azərbaycanın 25 ildən artıqdır işğal altında olan ərazilərindəki inzibati bölgələr arasında imzalanmış beş "xartiya"nı ləğv etməsi böyük əks-səda doğurub.***



Fransanın müvafiq məhkəmələri bu "xartiyalar"ın ləğv olunmasının səbəbini onların ölkənin xarici siyasətinə, eləcə də beynəlxalq öhdəliklərinə uyğun gəlmədiyini göstərib. Erməni separatçılarının planlarının puça çıxması, eləcə də Fransanın qanunsuz sənədlərlə bağlı reaksiyasına dair ortaya çıxan bəzi sualları bu ölkədəki səfirimiz Rəhman Mustafayev AZƏRTAC-a məxsusi müsahibəsində açıqlayıb. Müsahibəni təqdim edirik.

**- Bu yaxınlarda Fransa məhkəmələri bu ölkənin kommuna və regionlarının Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və işğal altında olan digər əraziləri ilə imzalanmış bəzi qeyri-qanuni xartiyaları ləğv etdi. Bu məsələ necə gündəmə gəldi?**

- 2013-cü ilin iyun ayından etibarən Fransanın bir sıra yerli hakimiyyət orqanlarının rəhbərləri (əsasən erməni icmasının çox olduğu regionlar - Ile de France, Rhone- Alpes, Alpes-Provence-Cote-d'Azur) Dağlıq Qarabağın işğal olunmuş ərazilərinin separatçı nümayəndələri ilə əməkdaşlıq haqqında 13 qeyri-qanuni sənəd, saziş və xartiya imzalayıblar. 2013-2017-ci illər ərzində 8 sənəd prezident Fransua Ollandın, 5 sənəd isə indiki Prezidentin dövründə, işğal olunmuş ərazilərdə və ya separatçı nümayəndələrin Fransaya səfərləri zamanı keçirilən görüşlərdə imzalanıb.

**- Bəs bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi necə olub?**

- Biz bu sənədlərin qanunsuz olduğunu və Fransanın milli qanunvericiliyini, eləcə də onun beynəlxalq və ikitərəfli öhdəliklərini kobud şəkildə pozduğunu əvvəlcədən bəyan etmişdik. Xüsusilə də 1993-cü il dekabrın 20-də Parisdə Azərbaycan və Fransa arasında imzalanmış dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Sazişi pozduğunu bildirmişdik. Xatırladaq ki, bu Sazişə uyğun olaraq, hər iki tərəf münasibətlərində suverenlik və sərhədlərin toxunulmazlığı prinsiplərinə qarşılıqlı şəkildə riayət etmək öhdəliyini götürüblər.

**- Fransa bu qeyri-qanuni sənədlərə nə üçün uzun müddət reaksiya göstərməyib?**

- Düşünürəm ki, Fransa tərəfi bu məsələyə çox ciddi yanaşıb. Bu ölkənin iki aparıcı nazirliyinin (Xarici və Daxili İşlər) nümayəndələri bir neçə ay ərzində kommuna, şəhər, departament və region kimi fransız yerli hakimiyyət orqanlarının beynəlxalq əlaqə və fəaliyyətlərinin hüquqi çərçivəsinin müəyyən edildiyi birgə sənəd-sirkulyar-hazırlayıblar. 2018-ci il mayın 28-də bu sirkulyar Xarici və Daxili İşlər nazirləri tərəfindən imzalanaraq icra edilməsi üçün ölkənin regionlarına göndərilib. Qeyd edim ki, bu sənəd icra baxımından məcburi xarakter daşıyır və yerli hakimiyyət orqanlarını Fransanın beynəlxalq öhdəliklərinə riayət olunmasına məcbur edir. O cümlədən Fransanın tanımadığı ərazi vahidlərinin separatçı orqanları ilə saziş imzalanmasını, səfərlərin və qarşılıqlı fəaliyyətlərin həyata keçirilməsi də daxil olmaqla hər hansı bir formada qarşılıqlı əlaqə yaratmağı qadağan edir. Eyni zamanda, sənəd hökumətin region və departamentlərdəki nümayəndələri olan prefektləri Fransanın qanunvericiliyinə riayət edilməsinə nəzarət etməyə və onun pozulduğu hallarda məhkəmə vasitəsilə müdaxilə etməyə məcbur edir. Yəni, sözügedən məhkəmə qərarlarında olduğu kimi, prefektlərin göstərdiyi səylərin nəticəsində 13 qeyri-qanuni sənədin 5-i yerli məhkəmələr tərəfindən ləğv edilib, 3-ü isə müvafiq yerli orqanlar tərəfindən etibarsız hesab olunub.

**- Sizcə, bu qanunsuz işlərlə bağlı qərar qəbul edərkən Fransanın icra və məhkəmə orqanlarına hansı amillər təsir göstərib?**

- Əsas amil ölkənin qanunlarının onun bütün ərazisində tətbiq edilməsidir. Fransanın bir neçə departamentində dissident-merlər 2013-cü ildən etibarən ölkənin Konstitusiyasını və digər qanunlarını, eləcə də beynəlxalq və ikitərəfli öhdəliklərini pozublar və onlara qarşı heç bir tədbir görülməyib. Təsadüfi deyil ki, məhkəmə qərarlarında aydın qeyd olunub ki, sözügedən qeyri-qanuni xartiyalar 1958-ci il Fransa Konstitusiyasının bir çox maddələrini, o cümlədən 3, 5, 14, 20, 52 və 72 saylı maddələrini pozur.

Bundan əlavə, fransız tərəfi bu cür qanun pozuntularının Azərbaycan-Fransa ikitərəfli münasibətlərinə, eləcə də ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın imicinə mənfi təsir etməsi faktını nəzərə aldı. Belə ki, həmsədr kimi Fransa bu münaqişənin həllində balanslaşdırılmış qərəzsiz mövqeyə sadiq qalmalıdır. Bununla bağlı diqqəti "xartiyalar"ın ləğv edildiyi məhkəmə qərarlarında qeyd edilmiş bəzi məqamlara çəkmək istərdim. Məhkəmənin ləğv edilmiş xartiyalara dair qərarlarında aydın şəkildə qeyd olunur ki, Fransa qanunlarının qadağan etdiyinə baxmayaraq, bu qanunsuz sənədləri imzalamaqla, yerli hakimiyyət orqanları Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə dolayı yolla müdaxilə etmiş olurlar. Üstəlik, qeyd edirlər ki, bu qanunsuz sənədlər işğal olunmuş ərazilərdə separatçı rejimi tanıyan sazişlər kimi qəbul edilməlidir. Halbuki Fransa və bütün beynəlxalq ictimaiyyət bu qurumu tanımaqdan imtina edir. Bunlar çox əhəmiyyətli mesajlardır və ümidvaram ki, onlar Fransanın yerli hökumət orqanlarının rəhbərləri, eləcə də erməni icması tərəfindən nəzərə alınacaq.

**- 13 qeyri-qanuni xartiyadan 8-i ləğv edilib və ya etibarsız sayılıb. Qalan 5 "xartiya"nın taleyi necə olacaq?**

- Hesab edirəm ki, artıq Fransa qanunlarına zidd olaraq qəbul edilmiş sənədlərin ləğv edilməsi ilə mühüm məhkəmə presedenti yaranıb. Buna görə də qalan "sazişlər"in ləğv olunması şansı yüksəkdir. Ümid edirəm ki, bu məhkəmə qərarları 2013-cü ildən başlayan "xartiya" imzalanmasına son qoyacaq. Eyni zamanda, hesab edirəm, arxayınlaşmaq da olmaz. Fransanın erməni icması, onun təşkilatları və yerli hakimiyyət orqanlarındakı "tərəfdaşları" şübhəsiz ki, beynəlxalq hüquq və fransız qanununun möhkəmliyini "sınaqdan keçirməyə" və işğal olunmuş ərazilərin separatçı nümayəndələri ilə bundan sonra da qeyri-qanuni fəaliyyət göstərməyə cəhd edəcəklər. Buna görə də bütün belə hallarda Fransanın həm paytaxtında, həm də regionlarında yerli hakimiyyət orqanları ilə müvafiq iş aparacağıq.

***Şəhla Ağalarova***

# Dənizdə tikinti işləri üçün təqribən 10 gəmidən istifadə ediləcək

***Azərbaycan təbii qazını Avropaya nəql edəcək "Trans-Adriatik" (TAP) boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 88 faizdən çoxu icra edilib.***

Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb.

Qeyd edək ki, TAP layihəsi qrafik üzrə davam edir. Hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa olunur.

Xatırladaq ki, ötən günlərdə TAP-ın inşası çərçivəsində Albaniya sularında dəniz borularının tikintisi başa çatıb. Boru kəmərinin dəniz hissəsinin mühəndislik, təchizat, tikinti və quraşdırma (EPCI) üzrə podratçısı İtaliyanın "Saipem" şirkəti bu əməliyyatlar üçün "Castoro 10" gəmisindən istifadə edib. Polad borular sahilə 1,4 kilometr məsafədəki gəmidə qaynaqlanıb. Daha sonra sınaqlar aparılıb və borular dənizin dibinə endirilib. 1,8 kilometrlik ilk borular Fier (Albaniya) yaxınlığında sahilə çıxıb. Uzunluğu 139 metr və eni 36 metr olan "Castoro 10" gəmisi boruları Albaniyanın dayaz sularında döşəyib, bunun ardından fiber-optik kabelin çəkilişi də həyata keçirilib.

TAP ötən ilin oktyabrında boru kəmərinin dəniz hissəsinin tikintisi işlərinə başlamışdı. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək. Boru kəmərinin Adriatik dənizindən keçəcək hissəsində ümumi tikinti işlərinin 20 faizdən çoxu icra olunub.

Boru kəmərinin Yunanıstandan keçən 550 kilometrlik hissəsində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bu ölkədə boruların 547 kilometri qaynaq edilib. 535 kilometr boru torpağa basdırılıb. Boru kəmərinin Albaniyadan keçən 215 kilometrlik hissəsində də ərazi təmizlənib və qiymətləndirilib. Boruların 214 kilometri qaynaqlanıb və 177 kilometr ərazi isə tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Yunanıstan və Albaniya marşrutunda boruların 98 faizi torpağa basdırılıb.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisinin 85 faizdən çoxu tamamlanıb. Kipoidə boruların tədarükü tamamlanıb və boruların 90 faizdən çoxu qurulub. Suyun dayanıqlılıq sınaqları isə qrafik üzrə irəliləyir. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal edilib.



İtaliyada mikrotunelin tikintisi üzrə hazırlıq işləri davam etməkdədir. Hazırda boru kəmərinin qəbulu terminalında, mikrotunel sahəsində və dənizə çıxış hissəsində işlər görülür.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

## "Sətti" qurğusu modernləşdirildikdən sonra Xəzər dənizi akvatoriyasında qazma əməliyyatlarına cəlb olunacaq










***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) yedək gəmilərinin müşaiyəti ilə "KazMunayGaz" şirkətinin "Sətti" özüqalxan üzən qazma qurğusu Qazaxıstanın Ersay limanından SOCAR-ın "Caspian Drilling Company" (CDC) MMC-nin müasir dəniz təchizat və logistika bazasına çatdırılıb. Proses boyu əsas yedək gəmisi kimi "Andoqa"dan, köməkçi yedək gəmisi kimi "Aura" və müşahidəçi gəmi kimi "SOCAR-1" gəmilərindən istifadə olunub.***

Qurğunun qarşılanma mərasimində şirkətin prezidenti Rövnəq Abdullayev və Qazaxıstanın "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyətinin sədri Alik Aydarbayevin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak edib.

Qazma qurğularının tikintisi və təkmilləşdirilməsi üzrə böyük təcrübəyə malik CDC-nin müasir təchizat və logistika bazasında "Sətti" qazma qurğusunun modernləşdirilməsi həyata keçiriləcək. Modernləşdirmə işlərinin cari ilin sonunda yekunlaşması gözlənilir. Modernləşdirildikdən sonra qurğu ilə 6000 metrdən çox dərinliyə malik kəşfiyyat quyularının təhlükəsiz və səmərəli qazılması mümkün olacaq, o cümlədən qurğunun Xəzər dənizində qazma xidmətləri sahəsində rəqabət qabiliyyəti artacaq. Qurğunun ilk növbədə Abşeron yarımadasının SOCAR və BP tərəfindən birgə istismar olunan dayazsulu hissəsində, "Ümid"-"Babək" blokunda aparılan işlərə, eləcə də Xəzər dənizi akvatoriyasında digər əməliyyatlara cəlb edilməsi nəzərdə tutulur. Əməliyyat dövründə qurğu üzərində menecmenti SOCAR-ın CDC şirkəti həyata keçirəcək.

Qurğunun qarşılanma mərasimindən sonra SOCAR və "KazMunayQaz rəhbərliyi Heydər Əliyev adına dərin özüllər zavoduna baş çəkib, SOCAR-ın "BOS Şelf" müəssisəsinin həyata keçirdiyi layihələrlə tanış olublar.

Xatırladaq ki, cari ilin yanvar-fevral aylarında SOCAR ilə "KazMunayGaz" arasında imzalanmış memoranduma əsasən, "Sətti" özüqalxan üzən qazma qurğusu SOCAR-ın CDC şirkətinə etibarlı idarəetməyə verilib.

"KazMunayGaz" Qazaxıstan dövlətinin neft və qaz sənayesində maraqlarını təmsil edən, karbohidrogenlərin kəşfiyyatı, istehsalı, emalı və nəqlini həyata keçirən operatordur. Şirkət 2002-ci ildə yaradılıb. Onun tərkibində 190-dan çox təşkilat birləşib. "KazMunayGaz"ın səhmdarları "Samruk-Kazyna" Milli Sərvət Fondu (90 faiz) və Qazaxıstan Milli Bankıdır (10 faiz).

CDC şirkəti isə 1996-cı ildə yaradılıb. Hazırda SOCAR-ın CDC-dəki payı 92,44 faizdir. CDC-yə məxsus "Dədə Qorqud" (1996), "İstiqlal" (1998) və "Heydər Əliyev" (2017) adına yarımdalma qazma qurğuları hazırda Xəzər dənizinin Azərbaycana aid hissəsində müxtəlif beynəlxalq miqyaslı layihələrdə fəaliyyət göstərir.

## Xəzər dənizi limanlarında "rəqəmsal dəhliz"in gücləndirilməsi layihəsinə start verilib





***"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) "Xəzər dənizi regionunda yaşıl limanların və bağlılığın təşviqi" layihəsinin açılışı ilə əlaqədar tədbir keçirilib.***

Tədbirdə Bakı Limanının Baş direktoru Taleh Ziyadov layihə barədə məlumat verərək deyib: "Bakı Limanının tətbiq etdiyi liman əməliyyat sistemi, sərnişinlər üçün hazırlanmış onlayn bilet sistemi, əldə olunan ISO 9001:2015 keyfiyyət, ISO 14001:2015 ətraf mühiti idarə etmə və bu il üçün nəzərdə tutulmuş EcoPorts PERS ekoloji sertifikat nümayiş etdirir ki, qurum fəaliyyətini zamanın tələbinə uyğun qurub. ATƏT-lə bu gün təməli qoyulan və üç qardaş limanı birləşdirən layihəmiz Xəzər regionunda ətraf mühitin qorunması və liman əməliyyatlarını sürətləndirən növbəti mühüm addım olacaq".

Bildirilib ki, layihə çərçivəsində Bakı, Aktau və Türkmənbaşı limanlarının avtomatlaşdırma və rəqəmsallaşdırma proseslərinin yol xəritəsinin hazırlanması, bərpa olunan enerjinin istifadəsi imkanlarının araşdırılması üçün müvafiq texniki-iqtisadi əsaslandırmanın işlənməsi nəzərdə tutulub.

ATƏT-in İqtisadi və ətraf mühit əlaqələndiricisi, səfir Vuk Zugic qeyd edib ki, enerji təhlükəsizliyi, rəqəmsallaşdırma və bağlılıq ATƏT-in müfəssəl təhlükəsizlik konsepsiyasının mühüm tərkib hissəsidir. "Əminəm ki, bu gün ATƏT-in Bakı Limanı ilə başladığı birgə layihə Azərbaycan, Qazaxıstan və Türkmənistanın yaşıl liman və bağlılıq mövzularında Xəzər dənizində mövqelərini gücləndirəcək", - deyə Vuk Zugic vurğulayıb.

## Sammitdə okeana atılan plastik tullantılar probleminə də xüsusi diqqət yetiriləcək

***G20 ölkələri liderlərinin iyunun 28-29-da Osakada keçiriləcək sammiti zamanı, əsas diqqət mərkəzində olacaq məsələlər qlobal iqtisadi vəziyyət və ticarət, həmçinin ekologiya məsələləri olacaq.***




NHK telekanalının verdiyi xəbərə görə, bu barədə iyunun 21-də Yaponiya Xarici İşlər Nazirliyindəki mənbə bildirib.

"Gündəlikdə müzakirə ediləcək məsələlər sırasında qlobal iqtisadiyyat, ticarət və investisiyalar, iqlim dəyişmələri və ekologiya xüsusi yer tutacaq",- deyə mənbə bildirib. İqtisadiyyatla bağlı müzakirələr aparacaq G20 liderləri qlobal iqtisadiyyatın inkişafının zəruriliyini təsdiq etməklə yanaşı, ədalətli və azad ticarətin təmin edilməsinə də çalışacaqlar.

Sammitdə, həmçinin rəqəmsal şirkətlərin beynəlxalq vergi sisteminə cəlb olunması mövzusuna toxunulması da planlaşdırılır. Həmin məsələ cari ayın əvvəllərində G20 ölkələri maliyyə nazirlərinin və mərkəzi bankların rəhbərlərinin Fukuokada keçirilən görüşü zamanı müzakirə edilib.

Ekoloji problemlərlə bağlı mövzular arasında isə okeana atılan plastik tullantılar probleminə xüsusi diqqət yetiriləcəyi bildirilir.

***Vüqar Ağayev***

## İməcilikdə hamı həvəslə iştirak edib



***Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzində növbəti iməcilik keçirilib.***

Milli Qurtuluş Gününə həsr olunmuş iməciliyə hər iki strukturun əməkdaşları və tələbələr həvəslə qatılıblar.

İməcilikdən öncə Təlim-Tədris Mərkəzinin direktoru Emil Manafov ətraf mühitin qorunması və onun təmiz saxlanılması, ekoloji tarazlığın bərpa edilməsi haqqında fikirlərini bölüşüb. Həmçinin, iməcilik zamanı təhlükəsizlik qaydalarına riayət olunması ilə bağlı könüllüləri təlimatlandırıb.

İməcilikdə Təlim-Tədris Mərkəzinin həyatində və ətraf ərazilərində səliqə-səhman yaradılıb, abadlıq işləri görülüb.

## "SOCAR Karbamid" zavodunun ilk ixrac məhsulu "Coral" gəmisi ilə ünvanına çatdırılıb

***Sumqayıtda yerləşən "SOCAR Karbamid" zavodunun ilk ixrac məhsulu ünvanına çatıb.***

İyunun 19-da Azərbaycan karbamidini daşıyan "Coral" gəmisi Türkiyə limanına çatıb və yük başaldılıb.

SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi və "Caspian EPC" şirkəti karbamidin logistika zənciri prosesini əvvəldən sonadək tənzimləyib və nəzarət edib. "SOCAR Karbamid"in məhsulunun ilk alıcısı "Integral Petroleum" şirkətidir. Treydinq və logistika şirkəti olan "Integral Petroleum" 2008-ci ildə İsveçrənin Cenevrə şəhərində yaradılıb və hazırda Qafqaz-Xəzər regionu, Mərkəzi Asiya və Mərkəzi Amerika ölkələrinin bazarlarında iş görür.

"Integral Petroleum" şirkəti öz məktubunda bütün layihə iştirakçılarına minnətdarlığını bildirib və Azərbaycan karbamidinin yüksək keyfiyyətdə olduğunu qeyd edib.






Xatırladaq ki, iyunun 6-da Hövsan limanından zavodun məhsulu – karbamid gəmilərə yüklənərək göndərilmişdi.

Qeyd edək ki, "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin ərazisində inşa edilən "SOCAR Karbamid" zavodu bu il yanvarın 16-da istifadəyə verilib. Zavod ildə 650-660 min ton karbamid istehsal etmək gücündədir. İstehsal həcminin təqribən 70 faizi ixrac üçün nəzərdə tutulub ki, bu da ölkəyə illik 160 milyon dollara qədər həcmdə əlavə gəlirin daxil olmasına imkan verəcək. "SOCAR Karbamid" hazırda ölkənin qeyri-neft sektorunda reallaşdırılan ən iri layihədir. Zavodun ümumi dəyəri təqribən 800 milyon avro təşkil edir.

***Ətrabə Rzayeva***

## Dənizçilərin tibbi müayinəsi haqqında məlumat kitabçası çap olunub

***"Dənizçilərin beynəlxalq standartlara uyğun tibbi müayinəsi haqqında məlumat kitabçası" çap olunub.***




Kitabçada dənizçilərin tibbi müayinəsi zamanı rəhbər tutulan qaydalar barədə geniş məlumat verilib və burada Beynəlxalq Dəniz Təşkilatı tərəfindən tibbi müayinələr həyata keçirmək və tibbi sertifikatlar vermək səlahiyyətinə malik tibb müəssisələri üçün təlimatla da tanış olmaq mümkündür. Həmçinin, nəşrdə dənizçilərin beynəlxalq tibbi yararlılıq meyarları üzrə ümumi test suallarının nümunələri də öz əksini tapıb.

Kitabçanın layihə rəhbəri "Dənizçilər poliklinikası" Məhdud Məsuliyyətli Cəmiyyətinin həkimi Adıgözəl Məmmədovdur. Həşrin gələcəkdə digər dillərdə də çap olunması nəzərdə tutulur.

## "Yavuz" gəmisi Aralıq dənizində kəşfiyyat-qazma işləri görəcək

***Türkiyə Aralıq dənizinin şərq hissəsindəki milli sektorunda karbohidrogen ehtiyatlarının axtarışını davam etdirmək üçün "Yavuz" kəşfiyyat-qazma gəmisini yola salıb.***



Bu münasibətlə Kocaeli vilayətinin Dilovası rayonundakı dəniz limanında rəsmi mərasim təşkil olunub. Enerji və Təbii Sərvətlər naziri Fatih Dönmez deyib ki, "Yavuz" gəmisi kəşfiyyat-qazma əməliyyatlarına iyulun əvvəlində başlayacaq.

Qeyd edək ki, Türkiyənin "Fatih" kəşfiyyat-qazma gəmisi Aralıq dənizindəki "Finike-1" adlı sahədə əməliyyat aparır. Yunanıstan və Cənubi Kipr yunan rəhbərliyinin Kipr adasının su sahəsində Türkiyənin kəşfiyyat-qazma işləri aparmasına etiraz etməsi rəsmi Ankaranın ciddi müqavimətinə səbəb olub. Türkiyə tərəfi əsaslandırır ki, Kiprin karbohidrogen ehtiyatlarından bəhrələnmək adanın türk və yunan icmalarının bərabər hüququdur. Bu hüquq beynəlxalq konvensiyalar əsasında müəyyən olunub.

***Sabir Şahtaxtı***

## TANAP - Türkiyə və Azərbaycan qardaşlığının Anadoluya atılan imzası
## Kəmərin istifadəyə verilməsindən 1 il ötdü

***Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə nəql edən TANAP boru kəməri Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan və 3500 kilometrlik Cənub Qaz Dəhlizinin birləşdirici halqasını təşkil edən TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düymlük hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düymlük hissəsinin uzunluğu isə 480 kilometrdir. Mərmərə dənizi boyunca isə boru kəmərinin diametri 36 düym təşkil edir. İki fazada icra olunan layihə çərçivəsində boru kəmərinin uzunluğu (19 kilometri Mərmərə dənizindən keçməklə) ümumilikdə 1850 kilometrdir.***



Tarixə nəzər salaq. Layihə ilə bağlı Azərbaycanla Türkiyə anlaşma memorandumunu 2011-ci il dekabrın 24-də imzaladı, bu çərçivədə SOCAR tərəfindən "TANAP Doğalgaz İletim AŞ" şirkəti yaradıldı. TANAP boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalandı və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqləndi. Bununla da Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində TANAP tikintisi ilə bağlı razılıq əldə edildi. Layihə çərçivəsində hasil olunacaq qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atıldı, TANAP və TAP qaz boru kəmərlərinin inşasına dair sazişlər imzalandı. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin iştirakı ilə TANAP-ın təməli qoyuldu.

Keçən il iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində Prezident İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic, Ukrayna Prezidenti Petro Poroşenko və digər rəsmi şəxslərin iştirakı ilə TANAP qaz kəməri istifadəyə verildi. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başladı.

TANAP Türkiyənin Gürcüstanla sərhədindəki Ardahan vilayətinin Posof mahalından başlayaraq 20 şəhər və 67 vilayətindən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanır. "Enerjinin İpək yolu" adlandırılan TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

TANAP Türkiyə və Azərbaycan qardaşlığının Anadoluya atılan imzasıdır. Boru kəməri ilə cari ilin 5 ayında Türkiyəyə 790 milyon kubmetr Azərbaycan təbii qazı nəql edilib. Bu vaxtadək isə Türkiyə TANAP-la 1,9 milyard kubmetr Azərbaycan qazı alıb. İyunun sonunadək bu həcm 2 milyard kubmetr, cari ilin axırına kimi 4 milyard kubmetrə çatacaq. 2021-ci ildə isə bu həcm 6 milyard kubmetr təşkil edəcək. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin isə artıq 99 faizi başa çatıb. Boru kəməri bu il TAP-a birləşmək üçün hazır olacaq. TANAP layihəsi üzrə kapital xərcləri 8 milyard dollardır ki, bu vaxtadək təxminən 6 milyard dollar xərclənib.

TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.

***Nihad Budaqov***

# Əhalinin azalması müşahidə olunan ölkələr artmaqdadır



***Yaxın 30 il ərzində planetimizin əhalisinin sayı 2 milyard nəfər artacaq və 2050-ci ilə qədər 9,7 milyarda çatacaq.***

Bu məlumatlar BMT-nin qlobal demoqrafik dəyişikliklər və perspektivlər barədə yeni məruzəsində öz əksini tapıb.

Növbəti 30 il ərzində əhali artımının 50 faizi 9 ölkənin – Hindistan, Nigeriya, Pakistan, Konqo Demokratik Respublikası, Efiopiya, Tanzaniya, İndoneziya, Misir və ABŞ-ın hesabına baş verəcək. Analitiklərin proqnozlarına görə, 2027-ci ildə Hindistan əhalinin sayına görə Çini ötüb keçəcək və dünyada birinci yeri tutacaq. Tropik Afrika ölkələrində sakinlərin sayı 2050-ci ilə qədər iki dəfə artacaq.

BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Lyu Çjenmin deyib: "Dünyanın ən yoxsul ölkələrində əhalinin artım sürəti daha böyükdür. Bu, yoxsulluğa, qeyri-bərabərliyə və aclığa qarşı mübarizədə əlavə çətinliklər yaradır, təhsil və səhiyyə sistemlərinin möhkəmlənməsinə yönəlmiş səyləri zəiflədir".

Məruzə müəllifləri təsdiq edirlər ki, planetin əhalisi qocalmaqdadır. Avropa və Şimali Amerika ölkələrində bu proses daha ciddi nəzərə çarpır. 2018-ci ildə yaşı 65 və daha yuxarı olan ahıl insanların sayı ilk dəfə olaraq 5 yaşa qədər uşaqların sayından çox olub.

Dünya əhalisinin qocalmasının əsas səbəbləri ömrün uzanması və doğum göstəricisinin azalmasıdır. Məruzədə göstərilir ki, bu gün dünyada hər qadına orta hesabla 2,5 yeni doğulmuş uşaq düşür. 2050-ci ildə bu göstərici 2,2 uşağa bərabər olacaq.

Ekspertlər vurğulayırlar ki, əmək qabiliyyətli əhalinin faizinin azalması, xüsusən ahıl insanların sosial təminatı, onlara pensiya ödənilməsi, əmək bazarında dinamikanın dəyişməsi ilə bağlı ciddi problemlərə gətirib çıxarır.

Məruzədə daha sonra qeyd edilir ki, əhalinin azalması müşahidə olunan ölkələrin sayı artmaqdadır. Bu, ilk növbədə doğum səviyyəsinin azalması ilə bağlıdır. 2050-ci ilə qədər dünyanın 55 ölkəsində əhalinin sayı minimum 1 faiz azalacaq. Bunların arasında Rusiya, Ukrayna, Belarus, Ermənistan, Latviya və Litva da var. Hazırda Rusiya əhalisinin sayı təqribən 144 milyon nəfərdir. 2050-ci ilə qədər bu göstəricinin 11 milyon nəfər azalacağı gözlənilir.

Qeyd edək ki, bu ilin aprel ayında Azərbaycan əhalisinin sayı 10 milyon nəfər çatıb. 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə doğulanda gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb.

# Dənizçilər qaçqın və məcburi köçkün ailələrini sevindiriblər



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) nümayəndələri tariximizin şanlı səhifələrindən olan Milli Qurtuluş Günü ərəfəsində ASCO-nun himayəsində olan qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı qəsəbələrə baş çəkiblər.***

Dənizçilər əslən Xocalı, Kəlbəcər, Laçın, Ağdam, Şuşadan olan və Goranboy rayonunda müvəqqəti məskunlaşan 779 qaçqın və məcburi köçkün ailəsinə, ümumilikdə 3350 nəfərə zəruri ərzaq məhsullarından ibarət sovqat paylayıblar.

Sakinlər onlara hər zaman göstərilən yüksək qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və ASCO-nun rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# "Dəniz Kuboku - 2019" beynəlxalq müsabiqəsinin planlaşdırılması üzrə işçi görüş keçirilib



***İyunun 18-də Hərbi Dəniz Qüvvələrinin qərargahında "Beynəlxalq Ordu Oyunları 2019" yarışları çərçivəsində Azərbaycanın ərazi sularında təşkil olunacaq "Dəniz Kuboku 2019" beynəlxalq müsabiqəsinin planlaşdırılması üzrə işçi görüş keçirilib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan, Rusiya, Qazaxıstan və İran nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müsabiqənin növbəti dəfə ölkəmizdə təşkilinin əhəmiyyəti vurğulanıb, hazırlıqla bağlı məsələlər, görüləcək işlər müzakirə edilib. Sonra yarışların keçirilməsi üçün hazırlanan infrastruktura baxış keçirilib.

Görüşün yekununa dair protokol imzalanıb.

# Təqiblər, münaqişələr, zorakılıq səbəbindən məcburi köçkünlərin sayı artır

***2018-ci ildə öz evlərini tərk edən insanların sayı 2,3 milyon artaraq 70 milyon nəfəri keçib.***



Bu barədə məlumat BMT Ali komissarının qaçqınların İşi üzrə İdarəsinin Cenevrədə dərc edilən "Qlobal tendensiya" adlı illik məruzəsində yer alıb.

"Məcburi köçkün düşmüş əhalinin sayı 2018-ci ildə 2,3 milyon nəfər artıb. Hazırda bütün dünyada təqiblər, münaqişələr, zorakılıq və insan hüquqlarının pozulması səbəbindən qaçan insanların sayı 70,8 milyon nəfərə çatıb", - deyə məruzənin müəllifləri burada "rekord yüksək" rəqəmlərdən söhbət getdiyini bildiriblər.

Ötən ilin sonlarında dünyada 25,9 milyon qaçqın, 41,3 milyon məcburi köçkün və 3,5 milyon sığınacaq almaq istəyən insan qeydə alınıb. Bütün qaçqınların təxminən 65 faizi Suriya (6,7 milyon nəfər), Əfqanıstan (2,7 milyon nəfər), Cənubi Sudan (2,3 milyon nəfər) və Somali (0,9 milyon nəfər) vətəndaşlarıdır.

Qaçqınları qəbul edən ölkələr arasında isə ilk yeri Türkiyə (3,7 milyon nəfər) tutur. Onun ardınca Pakistan (1,4 milyon nəfər), Uqanda (1,2 milyon nəfər), Sudan (1,1 milyon nəfər) və Almaniya (1,1 milyon nəfər) gəlir.

Məruzəyə əsasən, son 10 ildə məcburi köçkünlərin sayı 27,3 milyon nəfər artıb. Bunun əsas səbəblərdən biri Suriyada münaqişənin başlamasıdır. Həmçinin İraq, Yəmən, Konqo Demokratik Respublikası, Cənubi Sudanda münaqişələr və rohinca müsəlmanlarının kütləvi şəkildə Myanmadan Banqladeşə qaçması da məcburi köçkünlərin sayının artmasına təsir göstərib. 2018-ci ildə bu göstərici əsasən 1,5 milyon nəfərin məcburi köçkün vəziyyətinə düşdüyü Efiopiyanın, həmçinin Suriya və Venesuelanın hesabına artıb. Məcburi köçkünlər ən çox suriyalılar arasında müşahidə edilir – 13 milyon nəfər.

# Həbs edilmiş kapitan əvvəllər də suda qəza törədibmiş



***Macarıstan KİV-ləri ölkə prokurorluğuna istinadla bildirirlər ki, Budapeştdə Marqit adasının yaxınlığında göyərtəsində Cənubi koreyalı turistlər olan "Hableany" gəzinti katerini zədələmiş "Viking Sigyn" teploxodunun kapitanı, əslən Odessadan olan 64 yaşlı S. Yuri əvvəllər də suda qəza törədibmiş.***

2019-cu il aprelin 1-də S.Yurinin idarə etdiyi "Viking Idun" gəmisi Antverpendən Gentə keçən zaman yük gəmisi ilə toqquşub. Hərçənd, o vaxt tələfat olmayıb.

Dunayda qəza barədə iş üzrə əsas şübhəli şəxs olan kapitan hazırda həbsdədir. Prokurorluqdan verilən məlumata görə, saxlanılmış şəxs qəzadan dərhal sonra öz telefonundakı bəzi məlumatları silib. Həmin faylların məzmununun nədən ibarət olması hələ məlum deyil.

*Pərvanə Qarayeva*

# Yaponiya hökuməti Ormuz boğazında iki tankerə İran tərəfindən hücumun təşkilinə inanmır



***Yaponiya hökuməti ABŞ-dan Ormuz boğazında iki tankerə İran tərəfindən hücumun təşkili ilə bağlı daha çox sübut tələb etdiyini bəyan edib.***

Kyodo agentliyi xəbər verir ki, bu barədə ABŞ-a sorğu dövlət katibi Mayk Pompeonun hücumla bağlı heç bir dəlil gətirmədən İranı ittiham etməsindən sonra göndərilib. Bundan bir qədər sonra ABŞ Müdafiə Nazirliyi Yaponiyaya məxsus "Kokuka Courageous" tankerinin göyərtəsindən İrana məxsus olduğu güman edilən patrul gəmisinin partlamamış minanı götürməsini əks etdirən video yayımlayıb. Lakin Yaponiya hökumətindəki mənbələr bunun fakt olmasına şübhə ilə yanaşıblar. Yüksəkvəzifəli məmurlardan biri bildirib ki, ABŞ-ın izahı şübhələrin dağılması üçün əsas vermir.

Yaponiya hökuməti hazırda müxtəlif kanallar, o cümlədən Xarici İşlər naziri Taro Kono vasitəsilə daha konkret sübutlar axtarır.

İyunun 13-də mətbuat konfransında M.Pompeo elan edib ki, kəşfiyyatın məlumatları, əməliyyatın icrası üçün istifadə edilən silahlar, təcrübə səviyyəsi, bu yaxınlarda İran tərəfinin gəmilərə hücumu və ərazidəki digər qrupların həmin əməliyyat üçün kifayət qədər ehtiyatlara və bacarığa malik olmaması ABŞ-ın həmin nəticəyə gəlməsinə əsas verib.

Lakin Ş.Abeyə yaxın olan mənbələr bunların İran tərəfini günahlandırmaq üçün kifayət etmədiyini bildiriblər. Hətta həmin mənbə deyib ki, ABŞ-ın sadəcə təsdiq etməsinə əsaslanaraq, Yaponiya buna inana bilməz.

Xarici İşlər Nazirliyindəki mənbə isə bildirib ki, hücumun icrası üçün təcrübəyə gəlincə, yalnız İran deyil, eyni zamanda, ABŞ və ya İsrail də təqsirləndirilə bilər.

Xatırladaq ki, tankerlərə hücum Ş.Abenin İranın Ali rəhbəri Əli Xameneyi ilə Tehranda görüşü zamanı baş verib.

Baş Nazirə yaxın mənbə bildirib ki, bu hücum ABŞ ilə İran arasında vasitəçi olmağa çalışan Baş Nazirin nüfuzuna böyük zərbə vurub. Bu mənbə deyib ki, məsələ çox ciddidir və faktların dəqiqləşdirilməsi zamanı səhvə yol vermək olmaz.

Yaponiya hökuməti hücuma görə kimin məsuliyyət daşıması ilə bağlı hələlik şərh verməkdən çəkinir.

*Vüqar Ağayev*

# Göyərtəsində miqrantlar olan gəmi batıb



***Yunanıstanın Lesbos adası yaxınlığında göyərtəsində miqrantlar olan gəmi batıb, nəticədə 7 nəfər həlak olub.***

Yunanıstan Sahil Mühafizə Xidmətinin əməkdaşlarının səyi nəticəsində 57 sərnişin xilas edilib. Xilas olanları xəstəxanaya yerləşdiriblər.

Gəmidə olan miqrantların tam sayı məlum deyil. Ərazidə beş xilasedici gəmi və vertolyot axtarışları davam etdirib. Ehtimal olunur ki, gəminin aşmasına səbəb həddən artıq yüklü olmasıdır.

*İqbal Hacıyev*

# Batan qayıqda olan 31 nəfər xilas edilib...



***Türkiyə ərazisini qanunsuz yollarla tərk etmək istəyən şəxslərin olduğu qayıq batıb.***

Hadisə Egey Dənizinin Türkiyəyə aid hissəsində, Bodrum sahillərinə yaxın bölgədə baş verib.

Batan qayıqda olan 31 nəfər xilas edilib, 8 nəfərin cəsədi tapılıb.

İlkin məlumata görə, suyun 34 metr dərinliyində batmış qayıqda itkin düşənlərin axtarışı davam edir.

*Günel Məlikova*

# Qanunsuz yolla Yunanıstan adalarına keçmək istəyən 114 qaçqın saxlanılıb

***Türkiyə təhlükəsizlik qüvvələri qanunsuz yolla Yunanıstan adalarına keçmək istəyən 114 qaçqını saxlayıb.***



Qaçqınlar Muğla vilayətinin Fethiye rayonu sahillərində rezin qayıqlara minməyə hazırlaşarkən ələ keçiblər. Bildirilir ki, Pakistan, Suriya və Əfqanıstan vətəndaşlarından ibarət dəstə Muğladakı Miqrasiya İdarəsinə təhvil verilib.

*Sabir Şahtaxtı*

# Dənizdə xilas edilən miqrantları İtaliyaya icazəsiz gətirən təşkilatlar cərimə olunacaqlar




***Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (QAK) İtaliya hökumətini təhlükəsizlik haqqında dekretə yenidən baxmağa çağırıb.***

Yeni dekretə əsasən, dənizdə xilas edilən miqrantları İtaliyaya icazəsiz gətirən təşkilatlar 50 min avroyadək cərimə olunacaqlar.

# "Yoxsulluq hər bir cəmiyyətin rifahı üçün təhlükədir"

***Beynəlxalq Əmək Təşkilatının (BƏT) Cenevrədə keçirilən illik konfransına onlarca ölkənin dövlət və hökumət başçıları, minədək nümayəndə qatılmışdı. Builki forum xüsusi olub – Beynəlxalq Əmək Təşkilatı özünün bir əsrlik yubileyini qeyd edib və gələcəkdə insanların necə işləyəcəkləri barədə qərar verib.***

BMT-nin Xəbərlər Mərkəzi xəbər verir ki, Rusiya Federasiyasının Baş naziri Dmitri Medvedevin fikrincə, iş vaxtı müddətinin təşkilinin "daha loyal" olmalıdır: çevik qrafiklər, distansiya formatları tətbiq edilməli, əməkdaşlar buna ehtiyac olduğu təqdirdə işə çağırılmalıdır. Rusiyalı Baş nazir konfransda deyib: "Gələcəkdə sosial-əmək müqaviləsinin əsası kimi iş həftəsinin dördgünlük olması mümkündür". O, dördgünlük iş həftəsini tətbiq edən və öz əməkdaşlarına üçüncü istirahət günü üçün də qalan iki gün kimi əməkhaqqı ödəyən Yeni Zelandiya şirkətlərindən birini misal çəkib. "Yekunda bir iş saatı üçün təkrar hesablamada məhsuldarlığın artımı 20 faizə yaxın təşkil edib, əməkdaşlar arasında stresin səviyyəsi isə əhəmiyyətli dərəcədə azalıb", - deyə Medvedev qeyd edib.

Onun sözlərinə görə, daim uğur dalınca qaçmaq "xroniki" yorğunluğa çevrilir. "İnsanlar bəzən işdə sadəcə "yanırlar" və bu, işin məhsuldarlığının azalmasına gətirib çıxarır, iqtisadi göstəricilərdə öz əksini tapır", - deyən Baş nazir xatırladıb ki, Dünya Səhiyyə Təşkilatı "emosional yanma sindromu"nu rəsmi şəkildə xəstəlik kimi qəbul edib.

Fransa Prezidenti Emmanuel Makron çıxışında cəmiyyətin təbəqələşməsi təhlükəsi barədə xəbərdarlıq edib. Onun sözlərinə görə, kapitalın çox az sayda insanın əlində cəmləşməsi güclünün haqlı hesab edildiyi "cəngəlliklər qanunu"nun bərqərar olmasına gətirib çıxarıb. Bu da, öz növbəsində, millətçiliyin, ksenofobiyanın artmasına və demokratiyaya ümidin itirilməsinə səbəb olur.

E.Makron deyib: "Bizim hazırda yaşadığımız bazar iqtisadiyyatının şərtləri İkinci Dünya müharibəsindən sonra nəzərdə tutulduğundan daha sərtdir. Biz hələ çox da sezilməyən böhranı yaşayırıq, çünki qurbanlar bir-birindən hədsiz dərəcədə ayrılıblar və onların ümumi mərkəzi yoxdur". Fransa Prezidenti qeyri-bərabərliyi azaltmaqdan ötrü beynəlxalq əməkdaşlığı möhkəmlətməyə və Avropa İttifaqı ölkələrində minimal əməkhaqqı tətbiq etməyə çağırıb. Makron xəbərdarlıq edib ki, əks təqdirdə işçilər öz ölkələrini tərk edəcək və minimal əməkhaqqı tətbiq olunan digər ölkələrə, məsələn, Fransa və Almaniyaya üz tutacaqlar.

Almaniyanın kansleri Angela Merkel xatırladıb ki, dünyada 152 milyon uşaq işləyir, onlardan 73 milyonu sağlamlıq üçün təhlükəli şəraitdə çalışır. O deyib: "Bunun yolverilməz olduğu göz qabağındadır". Merkel nümayəndələri Beynəlxalq Əmək Təşkilatının bu vəziyyətə 2025-ci ilədək son qoymaq barədə təşəbbüsünü dəstəkləməyə çağırıb.

Onun sözlərinə görə, yalnız sosial ədalət sülhün qorunmasına yardımçı ola bilər. "Biz hər şeyin qarşılıqlı əlaqədə olduğu müasir aləmdə iqtisadi artımı uşaqlar da daxil olmaqla hər kəsin hiss edəcəyi sosial tərəqqiyə yönəltməyə çalışmalıyıq", - deyə Merkel bəyan edib.

Merkel hesab edir ki, qloballaşma sosial ədalətsizliyə gətirib çıxarır: 232 milyon əməkçi miqrant tikintidə və ev qulluqçusu qismində işləyərək istismara məruz qalır. O, həmçinin xatırladıb ki, 700 milyon insan işlədiklərinə baxmayaraq, səfalət içində yaşayır.

Almaniya kansleri BƏT-in 1944-cü ildə dərc edilmiş bəyannaməsindən sitat gətirib: "Əmək əmtəə deyil. Yoxsulluq hər bir cəmiyyətin rifahı üçün təhlükədir".

## TANAP-dan dəniz turizminə böyük töhfə



***Türkiyənin Ədirnə bölgəsində yerləşən Saros körfəzində Airbus A330 tipli sərnişin təyyarəsi suya salınıb. Gövdəsinin qarşı tərəfindən "TANAP" yazılan təyyarənin arxa səmtində Azərbaycanın və Türkiyənin dövlət bayraqları həkk olunub.***

TANAP-ın dəstəyi ilə həyata keçirilən layihə ESTAB (Edirne Saros Turizm Altyapı Hizmet Birliği) ve Skyair Shop şirketi arasında imzalanan anlaşma əsasında reallaşıb. Məqsəd Türkiyədə dəniz turizminin inkişafına dəstək verməkdir.

Sahildən bir dəniz mili (1850 metr) uzaqlıqda, 30 metr dərinlikdə yer alacaq gəminin uzunluğu 60 metr, ağırlığı 90 tondur.

***Sabir Şahtaxtı***

## Xəzər dənizində kruizlərin 2020-ci ildə başlanması gözlənilir



***Xəzər dənizində kruizlərin başlanması Rusiyanın təşəbbüsüdür və həmin gəmi "Pyotr Velikiy" gəmisidir ki, onu Rusiyada hazırlayırlar.***

Bunu jurnalistlərə açıqlamasında Dövlət Turizm Agentliyinin mətbuat xidmətinin rəhbəri Kənan Quluzadə deyib.

O bildirib ki, Rusiya prezidenti Vladimir Putin də Bakıya səfəri çərçivəsində həmin məsələyə toxunub və Rusiyadakı tərəfdaşlara bu işin tezləşdirilməsini tapşırıb: "Azərbaycan Həştərxan quberniyasının Turizm Nazirliyi və müvafiq dəniz qurumları ilə danışıqlar aparır. Azərbaycan həmin gəmi üçün artıq dayanacaq verib. Kruizin 2020-ci ildə başlanması gözlənilir. Bu, Xəzəryanı 5 dövləti əhatə edəcək. Azərbaycan turizminin inkişafı üçün böyük bir imkan var. Bu layihə tam olaraq Rusiyanın layihəsidir. Azərbaycan və digər dövlətlər buna dəstək olurlar".

## Nəqliyyatsız gün



***London şəhərinin meri Sadiq Xan havanın çirklənməsinin qarşısını almaq məqsədilə sentyabrın 22-də nəqliyyatsız gün elan edib.***

Mer London Bridge, Tower Bridge və şəhər ətrafında olan bəzi yerlərdə nəqliyyatın istifadəyə qapalı olacağını açıqlayıb.

O bildirib ki, ilk dəfə şəhər mərkəzindəki yolların böyük hissəsi bağlı olacaq, bu da insanlara başqa vasitələrdən istifadə etmək imkanı yaradacaq.

Qeyd edək ki, havanın çirklənməsi ildə təxminən 40 min insanın erkən ölümünə səbəb olur.

***Aynurə Tağıyeva***

## Sahilə atılan delfinlər özləri okeana qayıda bilmir...



***Okeanın və atmosferin tədqiqi üzrə ABŞ milli idarəsinin mütəxəssisləri son bir neçə ayda Meksika körfəzi sahilləri rayonunda afalin delfinləri arasında ölüm hallarının anomal yüksək səviyyəyə çatmasını qeyd ediblər.***

Bu məlumatı NBC telekanalı yayıb. Alimlərin hesablamalarına görə, bu il fevralın 1-dən iyunun ortalarına qədər Florida, Alabama, Missisipi və Luiziana ştatlarında okean sahilində azı 279 delfin aşkar edilib, onların çoxu ölü olub. İdarənin nümayəndələri vurğulayırlar ki, bu rəqəm göstərilən dövr ərzində orta illik rəqəmdən təqribən 3 dəfə çoxdur.

Diri delfinlər sahilə düşəndən sonra onlara kənardan kömək göstərilməsə özləri okeana qayıda bilmir və bir neçə saat ərzində ölür. Adətən quruya atılan delfinlər qoca, xəstə və ya yaralı olur.

Tədqiqatçılar bu hadisənin səbəblərini müəyyən etməyə çalışırlar. Onların fikrincə bunun bir səbəbi 2010-cu ilin aprel ayında "Deepwater Horizon" platformasında baş vermiş partlayışdan sonra Meksika körfəzinə neft axması ola bilər. Milyonlarla barrel neftin suya axması ilə nəticələnmiş bu ekoloji fəlakətin heyvanat aləminə məhvedici təsiri hələ də davam edir.

Təbiəti mühafizə təşkilatları daha əvvəl bildiriblər ki, neftlə çirklənmiş körfəz rayonlarındakı delfinlər çoxsaylı qaraciyər və ağciyər xəstəliklərindən əziyyət çəkir. Onlar kütlələrinin nisbətən az, özlərinin əzgin olması ilə fərqlənir.

Tədqiqatçıların digər fərziyyəsinə görə, delfinlərin məhv olmasının bir səbəbi də bu baharda baş vermiş daşqınlar nəticəsində Meksika körfəzinə qeyri-adi dərəcədə çox içməli suyun daxil olması ilə bağlıdır. Sahildə ölmüş vəziyyətdə tapılmış bəzi delfinlərin bədən örtüklərinin zədələnməsi aşkar edilib. Bu zədələr içməli suyun təsiri ilə yarana bilər.

## Orta kreyser ölçüsündə olan şəxsi yaxta



***Dünyanın ən böyük şəxsi yaxtası olan "Azzam" bu günlərdə Tivat şəhərinin "Porto Montenegro" limanına yan alıb.***

Monteneqronun "vijesti" saytı xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed əl-Nəhyana məxsus yaxta Tivatda uzunluğu 250 metrədək olan gəmiləri qəbul etməyə qadir 5-ci limana yan alıb.

2013-cü ildə Almaniyanın məşhur "Lürssen Yachts" şirkətinin tərsanəsində xüsusi sifarişlə inşa edilən "Azzam"ın tikintisi 610 milyon dollara başa gəlib. Uzunluğu 180 metr, eni təxminən 21 metr olan gəmi 13 min 136 ton su tutumuna malikdir və orta kreyser ölçüsündədir. Super dəbdəbəli gəmi, həmçinin mini sualtı qayığa da sahibdir.

"Azzam"ın səthi güllə keçirməyən şüşədən hazırlanıb. Gəmi mümkün bombardman raketlərinə qarşı müdafiə olunması üçün yüksək təhlükəsizlik sistemi ilə təchiz edilib.

"Azzam" göyərtəsinə 36 sərnişin və onlara qulluq edən heyətin 60 üzvünü götürə bilər.

***Asiman Əsədov***

## Xəzər dənizinin adalarında ov etmək qadağandır




***Azərbaycan Respublikasının "Qırmızı kitab"ına və Beynəlxalq Qırmızı Siyahıya adları düşmüş quş və heyvanların ovuna icazə verilmir. Quşlardan turac, ərsindimdik, fısıldayan qu, qızılqaz, talış qırqovulu, mərmər cürə, bəzgək, dovdaq, Qafqaz uları, tetra, heyvanlardan ceyran, maral, cüyür, köpkər, qarapaça, qonur ayı, bəbir və digərlərinin ovu qadağandır.***

Vəhşi heyvan və quşların sayını tənzimləmək məqsədilə qaban (çöl donuzu) Lənkəran, Astara, Lerik, Qax, Cəlilabad, Zaqatala, İmişli, Qusar, Xaçmaz, Neftçala, Yardımlı, Şəki və İsmayıllı, Dağıstan turu Zaqatala, Şəki, Qax, İsmayıllı, Quba, Oğuz, dovşan Şabran, Kürdəmir, Salyan, Neftçala, Cəlilabad, Biləsuvar, Yevlax, Lənkəran, Zaqatala, Ağstafa, Qazax, Zərdab, Masallı, Quba, Xaçmaz, İmişli, Sabirabad, Saatlı rayonlarının müvafiq ov sahələrində və ovçuluq təsərrüfatlarında, vəhşi quşlar - yalnız ovçuluq təsərrüfatlarının ərazilərində və ya xüsusi müəyyən olunmuş ov sahələrində ovlana bilər.

Məqsədimiz ölkədə sivil qaydada ovun aparılmasını təmin etməkdir.

Bu sözləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ovçuluğa Dövlət Nəzarəti Xidmətinin rəisi Füzuli Məmmədov deyib.

Nazirlik rəsmisi, həmçinin bildirib: "Azərbaycanda ov mövsümü iyunun 1-dən açıq elan edilib və 2020-ci il martın 7-dək davam edəcək. Ovçular nazirliyin Regional Ekologiya və Təbii Sərvətlər İdarələrinə müvafiq sənədlərini təqdim etməklə ov üçün icazə ala bilərlər. Ovçuluqla məşğul olmaq üçün ilk növbədə ovçuluq bileti alınmalı, daha sonra isə müvafiq bank hesablarına rüsum ödənilməlidir. Alınmış ov icazəsində ovun müddəti, ov üçün nəzərdə tutulmuş ərazi, ovlanacaq quş və heyvanın sayı dəqiq göstərilir. Ovçular bu tələbləri pozduğu halda məsuliyyətə cəlb edilirlər.

Vəhşi heyvan və quşların ovuna icazə verilərkən, ilk növbədə onların bioloji xüsusiyyətləri əsas götürülür. Yəni vəhşi heyvan və quşların çoxalma və balalama dövründə ov fəaliyyətinə icazə verilmir. Bu səbəbdəndir ki, heyvan və quşların ov icazəsi müddətləri ciddi fərqlənir, bəzi növlərə mövsümün əvvəlində, bəzilərinə isə sonunda icazə verilir və ya bir sıra növlərin ovlanma müddəti cəmi 1,5-2 ay olduğu halda, digər növləri 4-5 ay ərzində ovlamaq olar.

Ov turizmi ilə məşğul olanlara bir daha müraciət edirik ki, ov qaydalarına ciddi əməl etsinlər. Sərhədyanı və ya cəbhə zonasına yaxın inzibati rayonların ərazilərində, Xəzər dənizinin adalarında, yaşıl zonalarda, şəhərlərin və kurortların ətrafında yerləşən ən azı 1,5 kilometrə qədər sahələrdə, xüsusi mühafizə olunan ərazilərin daxilində və sanitariya-mühafizə zonalarında ov etmək qadağandır".

## Daxili sututarlarda sənaye üsulu ilə balıqçılıq bərpa mərhələsindədir



***Mərkəzi Asiya və Qafqaz ölkələri balıqçılıq təsərrüfatının və akvakulturanın təkmilləşdirilməsi yolunda irəliləyirlər.***

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) mətbuat xidmətindən bildiriblər ki, Bişkekdə keçirilən seminarların əsas mövzuları Mərkəzi Asiyada və Qafqazda balıqçılıq təsərrüfatının və akvakulturanın təkmilləşdirilməsi məsələləri ilə bağlıdır. Birinci seminar balıq ehtiyatlarının bərpası və akvakultura əsasında balıqçılıq təsərrüfatı haqqında biliklərin yayılmasına, ikincisi balıq yemi istehsalının inkişafına dair layihənin icrasına həsr edilib.

Mərkəzi Asiyanın və Qafqazın daxili sututarlarında sənaye üsulu ilə balıqçılıq ("CACFish") 1990-cı illərdə ciddi tənəzzülə uğrasa da, hazırda bərpa mərhələsindədir.

FAO-nun akvakultura üzrə mütəxəssisi Atilla Özdəmir deyib: "Mərkəzi Asiya ölkələrinin çoxunun zəngin daxili su resursları, yəni şirinsulu akvakulturaya yararlı çay və gölləri var. Lakin keçid iqtisadiyyatlı ölkələrdə kollektiv təsərrüfatlar dağılandan sonra hazırda bu regionlarda balıq istehsalının azalması müşahidə olunur".

Bu problemlər 2008-ci ilin sonunda FAO-nun himayəsi altında "CACFish" regional balıqçılıq təsərrüfatının yaradılmasını şərtləndirib. "CACFish"in məqsədi canlı su resurslarının inkişafına, qorunub saxlanılmasına, istifadə olunmasına və səmərəli idarə olunmasına, habelə akvakulturanın sabit inkişafına kömək etməkdir.

Regional seminar "CACFish" üzvü olan beş ölkənin və beş müşahidəçi ölkənin akvakultura əsasında balıqçılıq təsərrüfatı haqqında biliklərini genişləndirməyə imkan verib. Seminarda müvafiq növlərin seçim meyarları, daxili sututarlarda balıqçılığın təkmilləşdirilməsinin əsas metodları, ehtiyatların artırılması və nərəkimilərin populyasiyasının bərpası məsələləri müzakirə edilib.

FAO-nun balıqçılıq üzrə mütəxəssisi Ramazan Çələbi deyib: "Üzv və müşahidəçi ölkələr öz hesablamalarının nəticələrini təqdim ediblər ki, bu ölkələrdə balıq ehtiyatları, balıqların populyasiyasının bərpası və akvakultura əsasında balıqçılıq təsərrüfatları ilə bağlı işlərin vəziyyəti barədə FAO-nu və bir-birini məlumatlandırsınlar".

Bundan əlavə, FAO Mərkəzi Asiyada balıq yemi istehsalının inkişafı məsələləri ilə bağlı balıqçılara və hakimiyyət orqanlarına məsləhət xarakterli yardım göstərilməsinə yönəldilmiş layihənin icrasına başlayıb. Region üçün prioritet olan bu məsələ "CACFish"in sessiya iclaslarından birində nəzərdən keçirilib.

## Neris çayının radioaktiv çirklənməyə məruz qalması barədə informasiya həqiqətə uyğun deyil



***Litvada keçirilmiş hərbi təlimlər zamanı Neris çayının radioaktiv çirklənməyə məruz qalması barədə informasiya həqiqətə uyğun deyil.***

Bunu milli radionun efirində müdafiə nazirinin müavini Edvinas Kerza bildirib.

O deyib: "İki internet portalı kibernetik gigiyena qaydalarını pozaraq təlimlərdə insident barədə yalan informasiya yerləşdirib".

Kerza xatırladıb ki, bu, internet resurslarına hücum etmək yolu ilə Müdafiə Nazirliyi sisteminə ilk dəfə kölgə salmaq cəhdi deyildir. O deyib: "Dəst-xətt və üslub növbəti dəfə təkrarlanıb". Nazir müavini təəssüfləndiyini bildirib ki, Müdafiə Nazirliyinin ekspertlərinin tövsiyələrinə və müdafiə vasitələrinin tətbiqinə baxmayaraq, elektron KİV-lər hələ də zəifdir.

İyunun 9-da Litvanın iki internet nəşrində Litva və ingilis dillərində yerləşdirilən informasiyaya görə, 10 ölkədən təqribən 4 min hərbi qulluqçunun və mindən çox texnika vahidinin iştirakı ilə irimiqyaslı "Dəmir canavar – 2019" təlimləri zamanı Neris çayı radioaktiv çirklənməyə məruz qalıb. Guya kütləvi qırğın silahının sınaqları zamanı çaya tərkibində zənginləşdirilmiş uran olan mərmi düşüb".

## Dünya okeanı səviyyəsinin 7,2 metrinə bərabər sudan ibarət buzlaqlar əriyir



***Qrenlandiya buzlaqlarının əriməsi səbəbindən dünya okeanının səviyyəsi 2100-cü ilə qədər 5 santimetrdən 33 santimetrədək arta bilər. Yeri gəlmişkən, buzlaqların üçüncü minilliyin sonuna doğru tamamilə yoxa çıxacağı ehtimal olunur.***

Bir qrup alimin "Science Advances" elmi jurnalında dərc olunmuş tədqiqatında belə deyilir.

Alimlər bildiriblər: "Biz aşkar etdik ki, Qrenlandiya buzlaqları 2100-cü ilə qədər dəniz səviyyəsini 5 santimetrdən 33 santimetrədək artıra bilər ki, bu da buzlaqların 8 faizdən 45 faizədək azalmasına bərabərdir. Hesab edirik ki, parnik qazları tullantılarının əhəmiyyətli dərəcədə azalması baş verməsə, Qrenlandiya üçüncü minillik ərzində, çox güman, buz örtüyündən tamamilə azad olacaq".

Alimlərin fikrincə, bu proqnozun qeyri-müəyyənliyi planetin iqliminin inkişaf ssenarisinin qeyri-müəyyənliyi ilə bağlıdır. Parnik qazları tullantılarının səviyyəsindən asılı olaraq buzlaqlar öz kütləsinin 8-100 faizini itirəcək.

Tədqiqatçılar bildiriblər: "Qrenlandiya buzlaqları dünya okeanı səviyyəsinin 7,2 metrinə bərabər sudan ibarətdir. Son onilliklər ərzində temperaturun artması buzlaqların əriməsi prosesini sürətləndirib. Bu buzlaqlar min il sonra indikindən tamamilə fərqli görünəcək".

## İstanbul və Burqas şəhərləri arasında sərnişin gəmisi üzəcək

***Gələn ildən İstanbul və Burqas şəhərləri arasında sərnişin gəmisi istifadəyə veriləcək.***

Bu barədə Bolqarıstanın "BTV" televiziya kanalı məlumat yayıb.

İyun-sentyabr aylarında hərəkət edəcək gəmi 200 sərnişini qəbul etmək iqtidarında olacaq, iki şəhər arasında məsafəni 4 saata qət edəcək. Bildirilib ki, hazırda Türkiyə tərəfi ilə danışıqlar aparılır.

***İqbal Hacıyev***



## YARIZARAFAT, YARIGERÇƏK

**Yarımçıq adamlar bütöv iş görə bilməzlər.**

**Mən elə bir müdrik tanımıram ki, öyrənməyə ehtiyac duymasın.**

**Bəziləri elə danışırlar, az qalır deyəm: maşallah! Yalana bax e...**

**Hətta riyaziyyatla bağlı olmayan məsələləri də həll etmək üçün mütləq baş lazımdır.**

**Bəziləri kitab oxumadığını elə şəstlə deyir ki...**

**Düz adamları həmin ucalıqda olmayanlar çətin görür.**

**Qarşınıza yaxşı adamlar çıxmaya bilər. Yaxşı adamsınızsa, siz başqalarının qarşısına çıxın.**

**Oynamağa heç nə olmayanda belə, odla oynamayın. Sonu yanmaqdır.**

**Quzu ilə qurd kimi davrananların çoxu niyə qurdlarla quzu kimi davranır?**

**Allah ağıl veribsə, başqa şey istəmə.**

**Özlərini görməməzliyə vuranlar çox şeyi bizdən yaxşı görürlər.**

**Bəzilərinə yerini göstərməsən, sənə yer göstərməzlər.**

**Düşmən onsuz da özünü sənin gözündə böyütməyə çalışır. Sən də onu çox böyütmə.**

**Öz yolunuzla gedin. Bütün hamar yollar gedilmiş yollardır.**

**Hər iş yerində yaltaqların sayı qədər boş ştat var.**

**Bu boyda israfçılıq nəyə lazım? Hər addımıma bir quyu qazırlar.**

**Pul hər şeyi həll edirsə, riyaziyyatçılara nə ehtiyac?**

**Gedəcəyi yolun doğru olub-olmadığını bilməyən yola çıxmağa tələsməməlidir.**

**Lift çıxandan sonra pilləkənlər dəbdən düşüb. Halbuki, hər hansı mərtəbəyə pillə-pillə çıxmaq hər cəhətdən faydalıdır.**

**Bir də görürsən ki, ömründə qəzet-kitab oxumayan mütaliəsiz günü olmayanlara nə isə "oxuyur".**

**Pis adamlar onlarda yaxşı nə isə axtarıb tapmaq cəhdimə də pis baxırlar.**

**İndiki vəziyyətimin günahkarı özüməm. O dünyada cənnətdə yaşayacağam deyə, bu dünyada cəhənnəm əzabına dözdüm.**

**Əsrimiz kosmos əsri olduğu üçün insanlar insanlıqdan elə sürətlə uzaqlaşırlar?**

**Hər addımı səhv olan sonda nə iş görür?**

**Kimin kim olduğunu zaman çox gec göstərir. Zamanı gözləmə. Vaxtında özün müəyyənləşdir.**

**Sözünün üstündə dura bilməyənlər başqa şeylərin üstündə də çox dayana bilməzlər.**

**İnsanın inamı arzularından böyük olmasa, heç bir arzusuna çatmaz.**

**Ədalət olan yerdə ədalətli ola bilməyənlərdən ədalət olmayan yerdə ədalət gözləməyə dəyməz.**

**Bəzi rəhbər vəzifədə çalışanların gözünə girənlər çox olduğu üçün çox şeyi görə bilmirlər?**

**Nə qədər ki, hamımızı dünyaya qadınlar gətirir, kişilərin qadınlardan üstün olduğunu deyə bilmərəm.**

**Bəziləri qab sındıranda qəlb sındırdığından daha çox üzülür.**

**Uduza biləcəyinizi düşündüyünüz heç bir oyunu oynamayın.**

**İdarə etdiklərini düşünənlərin çoxunu hətta idarədə olmayanda da, idarə edirlər.**

**Nə qədər ki, yalanlar işə yarayır, yalan danışan çox olacaq.**

***Rasif TAHİROV***

## Yelkənli İdman Federasiyası optimist sinfi üzrə “Yay məktəbi 2019” layihəsinə start verib



***Azərbaycan Yelkənli İdman Federasiyası optimist sinfi üzrə “Yay məktəbi 2019” layihəsinə start verib.***

Federasiyadan bildiriblər ki, bu sinif üzrə qəbul üçün qeydiyyat artıq başlayıb. Qeydiyyat zamanı 7–14 yaşlı uşaqların sağlamlığı, bacarıq və qabiliyyətləri nəzərə alınır. Hər dövr üçün kursa 10–15 nəfərin seçilməsi nəzərdə tutulub. Qeydiyyat və seçimlər bütün kurs dövründə üç mərhələdə aparılacaq. Mərhələlər müvafiq olaraq, iyulun 1–14-də, iyulun 22-dən avqustun 4-dək və avqustun 5–18-də keçiriləcək.

Yelkənli idman növünə kütləvi maraq və istəyi təmin etmək məqsədilə təşkil olunan “Yay məktəbi”nin reallaşdırılması Azərbaycanda bu idman üzrə peşəkar idmançıların yetişdirilməsinə, yelkənli idmana sevginin aşılanmasına xidmət edir.

Ətraflı məlumat almaq üçün həftə içi saat 9:00-dan 18:00-dək (012) 493 73 29; (077) 497 44 05 nömrələri ilə əlaqə saxlamaq lazımdır.

## “Səbail” futbol klubu müdafiəçi Maudo Jarjue ilə yollarını ayırıb



*“Səbail” klubu daha bir futbolçu ilə yollarını ayırıb.*

Azərbaycanı UEFA Avropa Liqasında təmsil edəcək klub müdafiəçi Maudo Jarjue ilə vidalaşıb.

M.Jarjue 2017-ci ildən “Səbail” klubunun formasını geyinib. O, paytaxt təmsilçisinin heyətində 50 oyunda meydana əsas heyətdə çıxıb.

“Səbail” UEFA Avropa Liqasının birinci təsnifat mərhələsində Rumıniyanın “Kraivo” komandası ilə üz-üzə gələcək. İlk oyun iyulun 11-də Bakıda, cavab görüşü iyulun 18-də Krayovada keçiriləcək.

## Dünya və Avropa çempionu karyerasını başa vurduğunu elan edib



***Yaponiyanın “Sagan Tosu” futbol klubunun 35 yaşlı ispaniyalı hücumçusu Fernando Torres karyerasını başa vurduğunu elan edib.***

Bu barədə futbolçunun “Twitter” səhifəsində xəbər verilir.

Buna qədər Fernando Torres İspaniyanın “Atletiko”, İngiltərənin “Liverpul” və “Çelsi”, həmçinin İtaliyanın “Milan” klublarında çıxış edib. O, “Çelsi” futbol klubunun heyətində Çempionlar Liqasının (2011/2012), Avropa Liqasının (2012/2013) və İngiltərə Kubokunun (2011/2012) qalibi olub. “Atletiko” klubu ilə Çempionlar Liqasının (2015/2016) finalına çıxıb və Avropa Liqasının (2017/2018) kubokunu qazanıb. İspaniyalı hücumçu milli yığmanın heyətində Dünya çempionu (2010) və iki dəfə Avropa çempionu (2008, 2012) olub.

Fernando Torres klub səviyyəsində bütün turnirlərdə ümumilikdə 706 oyunda meydana çıxıb və 252 qol vurub. Həmçinin o, İspaniya yığmasının heyətində meydana çıxdığı 110 oyunda rəqib qapılarından 38 top keçirib.

## Emosional aclıq nədir?



***Qida hər birimiz üçün vacibdir. Bir çox insanlar sağlamlığını və enerjisini qorumaq üçün, bəziləri isə darıxdığından, stressi və ya emosional ağrıları aradan qaldırmaq üçün qidalanır. Emosional aclıq mütəmadi olaraq böyük miqdarda qida qəbul etmək vərdişidir. Bu iştaha fərqli hisslərdən irəli gəlir və aclıq deyil. Ekspertlərin fikrincə, doymamağın 75 faizi emosiyalardan yaranır. Təklik, zəiflik, hirs, məyusluq, depressiya, narahatlıq kimi hisslər şüursuz və nəzarətsiz qidalanmağa səbəb ola bilər. Xoşbəxtlikdən, qida asılılığını aradan qaldırmanın bir çox yolu var. Onun öhdəsindən gəlmək üçün istək və iradə lazımdır.***

Bu barədə tibb elmləri üzrə fəlsəfə doktoru Vəfa Paşazadə məlumat verib.

Sağlam qidalanma üzrə mütəxəssis, həmçinin fiziki və emosional aclıq arasındakı fərqlər barəsində məlumat verərək deyib: “Fiziki aclıq tədricən artır, yalnız emosional aclıq isə birdən-birə yaranır. İnsanlar adətən emosional aclığı qeyri-sağlam yeməklə aradan qaldırmağa çalışırlar. O zaman zərərli qidalar qəbul edirlər, məsələn, çox şirin və duzlu yeməklər yeyirlər. Fiziki aclığın tələbatını ödədikdən sonra artıq yeməmək üçün dayanırsınız. Bu hal emosional aclıqda çətin olur. Emosional aclıq hissi beyinlə bağlıdır. Siz pizza və ya dondurmanın dadını ağzınızda hiss edə bilirsiniz və beyniniz daim arzuladığınız qida haqqında düşünməyə başlayır. Fiziki aclıq mədədə hiss olunur. Qarın boşluğundan uğultu səsləri eşidilir. Maraqlısı budur ki, emosional aclığı doydurmaq insanda günah və xəcalət hissi oyadır”.

## Dənizçi ailələri arasında keçirilən “Atam, anam və mən” adlı idman-turizm yarışında bu dəfə də uduzan olmadı









***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC (ASCO) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) birgə təşkilatçılığı ilə Xaçmazın Nabran istirahət zonasında “Atam, anam və mən” adlı idman-turizm yarışı keçirilib.***

Tədbirin əsas məqsədi sağlam həyat tərzini təbliğ etməkdir.

ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin əməkdaşlarının nəzarəti ilə baş tutan yarış iki gün davam edib.

İştirakçılar çadır quraşdırmaq, meşə zolağındakı maneələri dəf etmək, topları səbətə atmaq, labirint şəklində quraşdırılmış iplərin arasından keçmək, iki ağaca bağlanmış ipin üzərində yerimək, oxlarla hədəfi vurmaq və s. yarışlarda güclərini sınayıblar. Qaydalara görə, yarışda qalib gəlmək üçün təkcə valideynlərin deyil, ailənin ən kiçik üzvlərinin də çevikliyi vacib rol oynayıb.

Yarışların ümumi nəticələrinə əsasən “Bibiheybət” Gəmi Təmiri Zavodunun təmsilçisi Mustafayevlər ailəsi (oğlan) və “ASCO Nəqliyyat” MMC-nin şərəfini qoruyan Cavadovlar ailəsi (qız) qalib adını qazanıblar.

İkinci yeri Dəniz Nəqliyyatı Donanmasının İsmayılovlar ailəsi (qız) və “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunun Nəsirovlar (oğlan) ailəsi tutub.

Xəzər Dəniz Neft Donanmasının Xəlilovlar ailəsi, “Bibiheybət” Gəmi Təmiri Zavodununun Rüstəmovlar ailəsi üçüncü yerlə kifayətləniblər.

Qalib komandalara diplom və qiymətli hədiyyələr verilib.

Qeyd edək ki, idman-turizm yarışı çərçivəsində ASCO və SOCAR-ın əməkdaşları arasında voleybol yarışı da keçirilib. Gərgin keçən oyunda SOCAR-ın voleybolçuları 3-2 hesabı ilə qələbə qazanıblar.

## Azərbaycan karate idman növü üzrə medal sayına görə 8 ölkə arasında birinci yerə layiq görülüb




***Budapeştdə döyüş idman növləri üzrə məktəblərarası dünya oyunlarına yekun vurulub.***

Azərbaycan Məktəb İdmanları Federasiyasından bildiriblər ki, iyunun 16-da start verilən və dörd idman növü üzrə (WKF karate, güləş, taekvondo və cüdo) təşkil edilən yarışda Azərbaycanı karate və cüdo üzrə yığma komandalar təmsil ediblər. İdmançılarımız həmin yarışlarda uğurla çıxış edərək beş qızıl, bir gümüş, iki bürünc medal qazanıblar. Qızıl və gümüş medalları komandamızın aktivinə karateçilərimiz yazdırıblar. Oyunlarda Ramil Baxşəliyev (İlham Məmmədov adına 261 saylı məktəb-lisey), Kənan Babayev (7 nömrəli tam orta məktəb), Fərid Ağayev (189-190 saylı orta məktəb), Hüseyn Hüseynzadə (Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya), Hüseyn Məmmədli (157 saylı tam orta məktəb) qızıl, Fidan Dadaşova (31 saylı tam orta məktəb) gümüş medala layiq görülüblər. Cüdoçularımız Yunus Yunusov (71 saylı tam orta məktəb) və Məmmədrza Hacızadə (277 saylı idman təmayüllü tam orta məktəb) bürünc medal qazanıblar.

On səkkiz ölkədən 2350 idmançının qatıldığı yarışlarda “Təhsil” Respublika İdman Mərkəzinin karate və cüdo idman növləri üzrə komandaları 9 idmançı ilə təmsil olunub.

Azərbaycan karate idman növü üzrə medal sayına görə 8 ölkə arasında birinci yerə layiq görülüb.

## 54 ölkədən 450 idmançının qatıldığı çempionatda həmyerlilərimiz uğurla çıxış ediblər



***Tunisin Hammamet şəhərində savat (Fransa boksu) döyüş növü üzrə dünya çempionatı keçirilib.***

Kombat versiyası üzrə keçirilən mundiala 54 ölkədən 450 idmançı qatılıb.

Azərbaycan Şaolin və Savat Döyüş Sənətləri Federasiyasının prezidenti və millinin böyük məşqçisi Rafiq Əliyevin rəhbərliyi altında çempionatda ölkəmiz 3 idmançı ilə təmsil olunub. Bu növ üzrə milli komandamızın ilk dünya çempionatı olmasına baxmayaraq yığmamız uğurlu nəticəyə imza atıb.

Həmyerlilərimizdən Nurlan Qədimov (70 kq) və Tural Bayramov (85 kq) bütün rəqiblərini məğlub edərək dünya çempionu olublar. Hər iki idmançımız qalib olmaqla yanaşı, avqust ayında Cənubi Koreyada keçiriləcək döyüş növləri üzrə dünya oyunları və noyabr ayında Fransada baş tutacaq qala döyüşlərinə vəsiqə qazanıblar. Digər idmançımız Bəhruz Çıraqov isə (75 kq) üçüncü yeri tutub.

## Rinolaliya



***Rinolaliya nitq aparatının anatomik-fizioloji çatışmazlıqları ilə şərtlənən səs tələffüzünün və səs tembrinin pozulmasıdır. Həmin qüsura çox vaxt tıntınlıq da deyirlər.***

Bu barədə AZƏRTAC-a məlumat verən "Loqos" nitq inkişafı və psixologiya mərkəzinin loqopedi Ülviyyə Axundova deyib: "Rinolaliya zamanı artikulyasiya mexanizmi, avazlanma və səsyaratma burun və ağız-udlaq rezonatorlarının fəaliyyət pozulmaları nəticəsində normadan kənarlaşır. Damaq-udlaq yumulmasının pozulmasından asılı olaraq rinolaliyanın bir sıra formaları var.

Qapalı rinolaliya danışıq səslərinin tələffüzü zamanı burun rezonansının fizioloji cəhətdən aşağı olması ilə xarakterizə edilir. Qapalı rinolaliyanın əmələ gəlməsinin ən başlıca səbəbi hipertrafik, zökəm, burun və burun-udlaq toxumalarının burun boşluğu keçidini bağlayan hissəsinin bitişməsidir.

Açıq rinolaliya zamanı ağız və burun boşluğunun arasındakı arakəsmələrin üzvü zədələnməsi nəticəsində səs tələffüzü eyni zamanda həm ağız, həm də burun boşluğunda baş verir, nəticədə səsin tembri dəyişir. Belə ağır pozulmanın mənşəyi toksoplazmoz, ananın hamiləlik dövründə düzgün qidalanmaması və psixi zədələnmələr hesab edilir. Uşaqlarda açıq rinolaliyanın aradan qaldırılması üçün ən birinci burun və burun udlağın müalicəsini aparmaq lazımdır. Adətən həmin uşaqlarda burunda tənəffüs nizama salınanda nitq normaya düşür.

Ön qapalı rinolaliya burun seliklərinin xroniki hipertrofiyası, burun boşluğunda polip, burun divarlarının əyriliyi, burun boşluğunda şişlərin olması ilə əmələ gəlir.

Arxa qapalı rinolaliya uşaqlarda ən çox adenoidlərin böyüməsi, burun-boğaz polipi, fibroma və ya başqa burun-boğaz şişləri nəticəsində olur”.

O, söhbətə davam edərək deyib: “Loqopedik təcrübədə açıq rinolaliya zamanı nöqsanları aradan qaldırmaq üçün bir sıra üsullar mövcuddur. Cərrahiyyə əməliyyatından sonra damaq pərdəsinə çoxlu elastiklik və hərəkətlilik vermək, eyni zamanda, cərrahiyyə əməliyyatından sonra qalmış çapığı ovuşdurub yumşaltmaq üçün məşğələnin ilk günləri masajdan istifadə etmək, çapığı ovuşdurub yumşaltmaq üçün cərrahiyyə əməliyyatı aparılmış nahiyəni kəsik-kəsik sıxmaq lazımdır. İnnervasiyanı gücləndirmək üçün damaq pərdəsini yüngülvarı sığallamaq, yüngül zərbələr vurmaq lazımdır. Bununla bərabər tənəffüsün, səsin və nitq səslərinin qoyuluşunun üzərində də iş aparılır. Artikulyasiya aparatını fəallaşdırmaq üçün müxtəlif dodaq və dil hərəkətləri məşq edilir. Səsə və sait fonemlərin düzgün artikulyasiya üzərində iş a və e səslərinin qoyuluşundan başlanılır və ardıcıllıqla o, ı, u, i, ə, ü səslərinə keçilir. Sait səslər üzərində işə başlamazdan əvvəl uşağın diqqətini damaq pərdəsinin qalxmasına cəlb etmək, sonra isə səslərin tələffüzünə başlamaq lazımdır. Səsin və tələffüzün üzərində iş apararkən uşaqlarda səsləri müxtəlif ucalıqda, azaldıb-artırmaqla, tələffüz etmək vərdişini tərbiyə etmək lazımdır. Bu məqsədlə mahnı məşqlərindən istifadə etmək məsləhət görülür. Bundan başqa mahnı rinolalik uşaqlarda şəxsi səsinə və nitqinə diqqəti, özünənəzarət vərdişini inkişaf etdirir. Hazırlıq nitqləri prosesində yanaqlara üfürməklə samit səslərin qoyuluşuna imkan yaranır. Hər bir qoyulmuş səs əvvəlcə hecada, sonra isə cümlədə avtomatlaşdırılır və tədricən gündəlik nitqdə differensiallaşdırılır”.

## Dərman içmədən təzyiqi aşağı salmaq olar

***Dərman içmədən təzyiqi aşağı salmaq olar. Bu məsləhətlər vaxtaşırı təzyiqin qalxması ilə müşayiət olunan zəif hipertoniya hallarında effektlidir. Əgər hipertoniya ciddidirsə, o halda bu məsləhətlərə dərman müalicəsinin uyğunlaşdırılması ilə riayət etmək lazımdır.***

Son zamanlar təzyiqin aşağı salınmasında dərmansız üsullara üstünlük verilməsi barədə söhbətlər tez-tez eşidilir. Rusiyalı mütəxəssis, terapevt-kardioloq Olqa Aleksandrova bildirib ki, bu üsullar orta və ağır hipertenziyalar zamanı dərmanı əvəz edə bilməz. Bununla yanaşı, dərman vasitələri ilə uyğunlaşmada onlar yenə də aktualdır.

**DASH-pəhriz.** Qidalanmanın bu növü təzyiqi aşağı salma vasitəsi kimi Ürək və Ağciyər Xəstəlikləri Milli İnstitutu tərəfindən qəbul edilib. Pəhrizin böyük hissəsini tərəvəz və meyvə, kəpəkli taxıl məhsulları təşkil edir. Bu zaman qırmızı ət və şirniyyatların qəbulu xeyli azaldılır. Həmçinin yağsız süd məhsulları, quş və balıq əti qəbul etmək məsləhətdir. DASH-pəhrizin köməyi ilə orta hipertoniyalı pasiyentlərin təzyiqini 14 gün ərzində normallaşdırmaq mümkündür.

**Fiziki aktivlik.** Həkim təzyiqin nəzarətdə saxlanılması üçün ən sadə və effektli üsul kimi orta tempdə kardioyüklənmələrdən (piyada gəzmək, rəqslər, lift əvəzinə pilləkəndən istifadə etmə) istifadə etməyi məsləhət görür.

**İstirahət.** Sağlamlıq üçün sərbəstlik anları, mühafizəkar hadisə və işlərdən uzaqlaşmaq çox vacibdir. Elə hərəkət etmək lazımdır ki, qısa müddətdə öz fikrindən əl çəkməyə, emosional şəkildə “yüklənmə”yə nail olasan. Məsələn, həkimin sözlərinə görə bu məqsədlər üçün meditasiya, təkbaşına gəzinti daha uyğundur.

**Bədən çəkisinə nəzarət.** Artıq çəkidə, xüsusən onun yüksək əmsalı zamanı arıqlamaq mütləqdir. Tosqunluq praktik olaraq yüksək təzyiqi təmin edir.

Həkim, həmçinin alkoqoldan imtina etməyi və duzdan minimum istifadəni tövsiyə edib. Aleksandrova xatırladıb ki, yüksək təzyiq zamanı alkoqol insult əmələ gətirə bilər.



BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2133